**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "AZƏRBAYCANDA İXRAC YÖNÜMLÜ SƏNAYE MƏHSULLARININ MÜƏYYƏN EDİLMƏSİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Məmmədova Fəridə Fikrət**

**BAKI - 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**_________________________ imza**

**"__ _" ______________ 2021-ci il**

# "AZƏRBAYCANDA İXRAC YÖNÜMLÜ SƏNAYE MƏHSULLARININ MÜƏYYƏN EDİLMƏSİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060408 - Marketinq

**İxtisaslaşma:** Logistika

**Qrup:** 314

**Magistrant:**
**Məmmədova Fəridə Fikrət qızı**
**____________________ imza**

**Elmi rəhbər:**
**i.ü.f.d. müəl. Talıbov Ceyhun Şahmar oğlu**
**___________________ imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay qızı**
**___________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**__________________ imza**

**BAKI – 2021**

## Elm andı

Mən, Məmmədova Fəridə Fikrət qızı and içirəm ki, “Azərbaycanda ixrac yönümlü sənaye məhsullarının müəyyən edilməsi” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

## “AZƏRBAYCANDA İXRAC YÖNÜMLÜ SƏNAYE MƏHSULLARININ MÜƏYYƏN EDİLMƏSİ”

## XÜLASƏ


**Tədqiqatın aktuallığı: Ölkə iqtisadiyyatının davamlı inkişafını təmin etmək, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması, dayanıqlı iqtisadiyyatı təmin etmək üçün qeyri-neft sənayesinin inkişaf etdirilməsi və ixrac potensialının yüksəldilməsi hökümətin əsas siyasi prioritetlərindəndir. Dövlət bunun üçün müxtəlif istiqamətlərdə tədbirlər həyata keçirir. Dövlət həyata keçirdiyi tədbirlərdən olan ixracın stimullaşdırılması həm milli iqtisadiyata, həm də büdcə gəlirlərinə təsirinə görə böyük əhəmiyyət kəsb edir. Qeyri-neft sənayesinin inkişafı ölkənin neftdən asılılığını azaltmağa təsir edir. Bunun nəticəsi olaraqda, neftin qiymətində baş verən dəyişikliklər zamanı iqtisadiyyata mənfi təsiri minimum səviyyəyə enəcəkdir.**

**Tədqiqatın məqsədi: Qeyri-neft sektorunun iqtisadiyyatda yerini və rolunu müəyyən etmək, ixrac imkanlı sahələri müəyyən etmək, ixrac potensialının artırılması üçün metod və hədəfləri müəyyən etməkdir**

**İstifadə olunmuş tədqiqat metodları: Müqayisəli təhlil, sintez, qruplaşdırma, statistic analiz metodlarından istifadə olunub.**

**Tədqiqatın informasiya bazası: Azərbaycan Respublikası Prezidentin sərəncamları, fərmanlar, Nazirlər kabinetinin qərarları, Gömrük komitəsinin statistik və hesabat məlumatları, internet resursları, elmi məqalələrdən və s. təşkil edir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqatın əsas problemi ölkənin əsasən qeyri-neft sektoru üzrə ixtisaslaşması, məlumat və ədəbiyyat azlığı təşkil edir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatada əsasən qeyri-neft sektorunun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, istehsal prosesinin təkmilləşdirilməsi, müasir istehsal sənayelərinin yaradılmasıdır. Tədqiqatda müqayisə metodundan istifadə edərək sənayenin səmərəli təşkil etməkdən ibarətdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Qeyri-neft sektorunun investorları, ixrac fəaliyyətli ilə məşğul olan sənaye sahələri, bakalavr və magistrantlar tədris materialı olaraq istifadə edilə bilər.**



***Açar sözlər: Azərbaycanın qeyri-neft sektoru, ixrac potensialı, sənaye məhsulları.***

**“DETERMINATION OF EXPORT-INDUSTRIAL PRODUCTS IN AZERBAIJAN”**

**SUMMARY**

**The actuality of the research: Ensuring sustainable development of economy, improving the living standards of the population, developing industry and increasing export potential to ensure a sustainable economy are the main priorities of the government. The state is taking measures in various directions. Export stimulation, one of the measures taken by the state, is of great importance due to its impact on both the national economy and budget revenues. The development of the non-oil industry helps to reduce the country's dependence on oil. As a result, the negative impact on the economy during changes in oil prices will be minimized.**

**Purpose and tasks of the research: To determine the place and role of the non-oil sector in the economy, to identify export-oriented areas, identify methods and goals to increase export potential**

**Used research methods: Comparative analysis, synthesis, grouping, statistical analysis methods were used.**

**The information base of the research: Decrees of the President of the Republic of Azerbaijan AR, statistical and reporting data of the Customs Committee, Internet resources, scientific articles, etc. contane.**

**Restrictions of research: The main problem of the research is the country's specialization in the non-oil sector, lack of information and literature.**

**The novelty and practical results of investigation: The research is mainly aimed at determining the development directions of the non-oil sector, improving the production process, creating modern production industries.**

**Scientific-practical significance of results: Non-oil sector investors, export-oriented industries, bachelors and masters can be used as teaching material.**

***Keywords: Azerbaijan's non-oil sector, export potential, industrial products.***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ASC** | Açıq Səhmdar Cəmiyyəti |
| **QSC** | Qapalı Səhmdar Cəmiyyəti |
| **MMC** | Məhdud Məsuliyyətli Cəmiyyət |
| **İEÖ** | İnkişaf Etmiş Ölkələr |
| **İEOÖ** | İnkişaf Etməkdə Olan Ölkələr |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **ETT** | Elmi Texniki Tərəqqi |
| **KOS** | Kiçik və Orta Sahibkarlıq |
| **AİŞ** | Azərbaycan İnvestisiya Şirkəti |
| **SİF** | Sahibkarlığın İnkişafı Fondu |
| **ABŞ** | Amerika Birləşmiş ştatları |
| **İİİ** | İnvestisiya-istehsal-ixrac |

**MÜNDƏRİCAT**

**GİRİŞ...................................................................................................... 9**

**I FƏSİL. İXRAC YÖNÜMLÜ SƏNAYE MƏHSULLARININ MÜƏYYƏN EDİLMƏSİNİN NƏZƏRİ ƏSASLARI ........................................................ 12**

1.1. Sənaye məhsulların müəyyən edilməsinin nəzəri əsasları ............................ 12

1.2. İxrac potensialının artırılmasına metodları ................................................ 21

1.3. Qeyri-neft sənayesinə institutsional yanaşmalar..........................................27

**II FƏSİL. AZƏRBAYCANDA SƏNAYE BÖLMƏSİNDƏ İXRAC İMKANLARINDAN İSTİFADƏNİN CARİ VƏZİYYƏTİ VƏ ONUN MÜQAYİSƏLİ ŞƏKİLDƏ QİYMƏTLƏNDİRİLMƏSİ VƏ MƏHSULLARIN ADINI MÜƏYYƏN EDİLMƏSİ YOLLARI**Ошибка! Закладка не определена.**32**

2.1. Qeyri-neft sənayesində ixrac potensialının artırılması yolları ...................... 32

2.2. İqtisadiyyatın inkişaf mərhələsində ixrac potensialı və rəqabət qabiliyyətinin formalaşması .................................................................................................. 34

2.3. Müasir dövürdə Azərbaycanının sənaye məhsullarının ixrac potensialı və onun qiymətləndirilməsi ........................................................................................... 39

**III FƏSİL. AZƏRBAYCANDA SƏNAYE MƏHSULLARININ İXRAC POTENSİALININ ARTIRILMASI İSTİQAMƏTLƏRİ VƏ DÖVLƏT DƏSTƏYİ...............................................** Ошибка! Закладка не определена.**53**

3.1. Sənaye məhsullarının ixrac potensialının artırılmasına dövlət dəstəyi 53**Ошибка! Закладка не определена.**

3.2. Azərbaycanda sənaye məhsullarının ixracat prioritetləri................................ 61

3.3. Azərbaycan Respublikasının ixrac potensialının artırılması və sənaye sahəsinin təkmilləşdirilməsinə dövlətin hüquqi təminatı mexanizimləri................................67

**NƏTİCƏ VƏ TƏKLİFLƏR ........................................................................ 73**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**Ошибка! Закладка не определена.**76**

**ƏLAVƏLƏR**......................................................................................80

Cədvəllərin siyahısı ...................................................................................... 86

Şəkillərin siyahısı ..................................... Ошибка! Закладка не определена.86
Qrafiklərin siyahısı ................................... Ошибка! Закладка не определена.86

# GİRİŞ

**Mövzunun aktuallığı:** Ölkəmiz müstəqillik əldə etdikdən sonra bir sıra problemlərlə qarşılaşmışdır. Ölkədəki neft resurslarının zənginliyi ölkəmizdə əsasən neft sənayesi üzrə ixtisaslaşmağa imkan vermişdir. Neft sənayesinin inkişafına təsirlərdən biridə 20 sentybar 1994-cü ildə "Əsrin müqaviləsi" nin imzalanması olmuşdur. 2014-cü ildən dünyada baş verən böhran Azərbaycanda iqtisadiyyatın neftdən asılılığının bir daha göstərdi. Neft bərpası olmayan resurs və neftin qiymətində baş verən dəyişikliklər iqtisadiyyata təsir edir. Ölkə rifahı, iqtisadiyyatda rəqabətli məhsul istehsalı, neft amilindən asılığı qaldırmaq və tarazlı inkişaf üçün sənaye sahələrinin inkişafına zəmin yarandı. Azərbaycanda ixracı müəyyənləşdirərkən ən böyük hissənin neft sənayesinin payındadır. Çünki durğunluq nəticəsində ölkədə 2014-cü ildə 2 dəfəyə yaxın azalmışdır. Qeyri-neft sənayesinə neft-qaz çıxarma və neft sektorları istisna bütün fəaliyyət sahələri aiddir. Metalurgiya sənayesi, yeyinti sənayesi, yüngül sənaye və s.

Müasir dövrdə ulu öndər Heydər Əliyev və cənab İlham Əliyevin uğurlu iqtisadiyyat sayəsində Azərbaycan borc alan ölkə olmaqdan çıxmış və borc verən ölkə olmuşdur. Bunun nəticəsidir ki, qarşıya qoyulmuş əsas məqsədlərdən biridə qeyri-neft sənayesinin inkişafı və ixrac potensialının artırılmasıdır. Təhlillər onu göstərir ki, qeyri neft sənayesinin inkişafı ixrac gəlirlərinin artırılmasında büdcəyə təsir edən və insanların yaşayış rifahını yaxşılaşdıran siyasətdir. Ölkəmizdə əsas meyar sanayedə yenilik yönümlü texnologiyalardan, hər bir iqtisadi zona üçün şəhərciklərin salınmasıda diqqət mərkəzindədir. Ölkəmizdə qeyri-neft sənayesinin inkişafında başlıca rola Sumqayıtda neft-kimya məhsullarının istehsalı, Balaxanıda məişət tullantılarının təkrar emalı və Gəncə metal məhsulların istehsalı üzrə sənaye şəhərciylərinin qurulması malikdirlər. İndiki dövrdə maşınqayırma sənayesinin inkişafı və rəqabət qabiliyyətinin artırılması əsas meyarlardandır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Tədqiqatda əsasən sənaye məhsullarının müəyyən edilməsi, ixrac potensialının artırılması üçün qeyri-neft sənaye sahələrinin inkişaf etdirilməsi durur. İxrac potensialı və müasir dövrdə Azərbaycanda sənaye inkişafı üçün dövlətin həyata keçirdiyi tədbirlərdə dayanır.

**Tədqiqatın məqsədi və vəzifələri:** Azərbaycan iqtisadiyyatında sənaye məhsullarının yeri və rolunu öyrənmək, sahələrin inkişaf potensialını nəzəri və praktiki cəhətdən araşdırmaq, ixrac potensialını artırmaq üçün tövsiyyələrin hazırlanması və qeyri neft sənayesinin inkişafı zamanı qarşıya çıxacaq problemlərin həll edilib, dünya iqtisadiyyatına çıxa biləcək məhsulların müəyyən edilməsi və inkişafı üçün təkliflər verməkdən ibarətdir. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı bəzi vəzifələr yerinə yetirilmişdir:

- ❖ Milli iqtisadiyyatın tarazlı inkişafı üçün ixrac əməliyyatlarını həyata keçirən ölkələrin müəyyən edilməsi (rəqabət üstünlüyünün müəyyənləşdirilməsi);
- ❖ Qeyri neft sektorunun inkişafına dəstək layihələrinin tətbiqi;
- ❖ İxrac potensiallı sənaye məhsulların təhlili;
- ❖ İxrac zamanı aşkarlanan problemlərin həlli yollarının axtarılıb tapılması;
- ❖ Ölkənin ixrac potensialının artırılması üçün dövlətin həyata keçirdiyi tədbirləri müəyyən etmək.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti kimi sənaye məhsullarının müəyyən edilməsi, tədqiqatın predmetini isə ixrac potensialının artırılması, dövlətin həyata keçirdiyi mexanizimlər təşkil edir.

**Tədqiqat metodları:** Tədqiqatın aparılması zamanı iqtisadi fəalliyəti anlamaq, statistikanın düzgün qiymətləndirilməsi, fəaliyyət istiqamətlərini müəyyən etmək üçün müxtəlif metodlardan istifadə olunur.

1. Dialektik metod (iqtisadi hadisə və proseslərin inkişafa təsirini, inkişafın yüksəlməsi üçün həlledilmə qaydalarının müəyyənləşdirilməsi);
2. Qruplaşdırma metodu: Problemi həll etmək üçün ilk növbədə qruplara ayırılacaq;
3. İndeks metodu: cari dövr ilə keçmişin müqayisəsidir. Məsələn:ixrac olunan məhsulun dəyəri müqayisə ediləcək;

4. Ekspert metodu: Bu metodda tədqiqatda istifadə olunacaq ekspert fikirlər əsas götürülərək müəyyən araşdırmalar zamanı istifadə ediləcək;

5. Sintez metodu: Aparılmış araşdırma sonunda alınmış nəticəni tətbiq etməklə uğurlu sənayenin inkişafı üçün istifadə ediləcək.

**Tədqiqatın informasiya bazası:** İbad Abbasov, Təbriz Əliyev, Arif Şəkərəliyev, Qoşqar Şəkərəliyev, Azərbaycan Respublikasının Prezident fərmanları və sərəncamları, hüquqi-normativ sənədlər, Nazirlər kabinetinin qərarları, DSK və DGK statistik və hesab məlumatları, elektron resurslar və xarici ədəbiyyatlar.

**Tədqiqatın məhdudiyyətləri:** Hər bir tədqiqat araşdırmasında müəyyən məhdudiyyətlər vardır. Bu tədqiqatdakı məhdudiyyət Azərbaycanın əsasən neft-qaz sənayesi üzrə ixtisaslaşması və bu səbəbdəndə qeyri-neft sənayesi üzrə azərbaycan dilində mənbələrin az olmasıdır.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqat işinin elmi yeniliyi:

❖ Qeyri-neft sənayesinin inkişafı üçün yaranan problemlərin müəyyənləşdirilməsi və aradan qaldırılması;

❖ Qeyri-neft sənayesinin hazırkı vəziyyəti araşdırılmış və potensial istiqamətlər müəyyənləşdirilmişdir;

❖ İxrac ticarətinin genişləndirilməsi, ixrac problemlərinin aradan qaldırıması yolları araşdırılmışdır;

❖ Qeyri-neft sənayesinin iqtisadi mexanizimlə artırılması yolları müəyyən edilmişdir;

❖ Qeyri-neft sənayesində müasir sahələrin formalaşması amilləri araşdırılmışdır.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tətdqiqatın əhəmiyyəti Azərbaycanda istehsalı həyata keçirilən və ixrac potensallı məhsulları müəyyən etməkdən və inkişafı üçün həlli yollarının müəyyənləşdirilməsindən ibarətdir. Dissertasiya işindəki təklif və tövsiyyələrin reallaşdırılması ölkəmizdə ixrac edilə biləcək sənaye məhsullarının daha dərindən öyrənilməsinə və fəalliyyətin ona uyğun qurulması üçün müəyyən dərəcədə yardımçı olacaq. İxrac məlumatları üçün bazar

tədqiqatını aparan marketoloqlar, eyni zamanda bakalavr tələbələri, magistratura tələbələri də dissertasiya işinin nəticələrindən faydalana bilərlər.

# I FƏSİL. İXRAC YÖNÜMLÜ SƏNAYE MƏHSULLARININ MÜƏYYƏN EDILMƏSİNİN NƏZƏRİ ƏSASLARI

## 1.1. Sənaye məhsulların müəyyən edilməsinin nəzəri əsasları

Sənaye təbiətin bəxş etdiyi resurslar hesabına tələbat üçün son məhsul istehsal edən sahədir. Sənaye sahəsi isə eynicinsli məhsul istehsalı edən müəssisələrdir. Ölkənin əsas struktrunu sənaye təşkil edir. Sənaye 2 sahədən ibarət olur.

1. Şəxsi istehlak üçün istehsal edilən sənaye;
2. İstehsal istehlakı üçün xammal istehsal edən sənaye.

Sənaye təkcə məhsul istehsalı deyil, həmçinin ölkə daxilində məhsuldar qüvvələrin və sənaye sahələrinin optimal yerləşdirilməsindədə rol oynayır (https://republic.preslib.az/az_c2.html, 2021).

Sənayeni iqtisadiyyatın digər sahələrindən fərqləndirici xüsusiyyətləri vardır. Bunlar aşağıdakılardır:

1. Sənayenin inkişaf etdirilməsi elmi-texniki tərəqqinin sürətlənməsidir. Məs: maşınqayırma sənayesinin inkişafı kənd təsərrüfatı sahəsinə təsir edəcək (elektroenergetika sənayesi, kimya sənayesi);
2. Əhalinin ərzaq təminatı və istehlak təminatı sənayenin inkişafından asılıdır (yüngül sənaye və yeyinti sənayesi);
3. Sənayenin inkişafı ekologiyanı qoruyur (təkrar emal sənayesi) (İbrahimov İ.H., Rüstəmov İ.S., Axundov V.C., 2019).

Sənayenin sahə strukturu hər bir ölkədə fərqlidir və dəyişəndir. Sənayenin sahə struktunu formalaşdıran xüsusiyyətlər aşağıdakılardır:

1. Elmi-texniki tərəqqi: Sənayenin inkişafında elmi-texniki tərəqqi xüsusi rola malikdir. Ümumi olaraq qeyd etmək olar ki, elmi-texniki tərəqqi hansı ölkədə daha çox inkişaf sürətinə malikdirsə həmin ölkədə sənayedə sürətli inkişaf edir. Elmi-

texniki tərəqqinin sürətlənməsi nəticəsində yeni sənaye sahələri yaranır. Məs: kosmik texnika istehsal sahələri;

2. Resurs mövcudluğu: Hər hansı sənaye sahəsinin inkişafı üçün müəyyən xammal mövcud olmalıdır. Ölkənin xammal resursu ilə zəngin olması sənayenin dahada inkişafına səbəb olur. Xammala sahib olan ölkələrdə sənaye istehsalı daha yüksək paya sahib olur;

3. Dövlət dəstəyi: Dövlətin həyata keçirdiyi siyasətlər sənaye inkişafına təsir edir. Belə ki, ölkədə həyata keçirilən siyasətlər sayəsində daha əhəmiyyətli, rifah səviyyəsini yüksəldən, ixrac yönümlü sənaye sahələrini dəstəkləyə bilər və buda həmin sənaye sahəsinin sürətli inkişafına səbəb olur;

4. Əhalinin maddi rifah səviyyəsi: Əhalinin istehlak tələbatı onun maddi rifahından asılıdır. Tələbat yüksək olan sənaye sahələrinin inkişafı daha sürətlidir. Maddi rifah səviyyəsi yüksək və orta olan ölkələrdə istesal sahələrinin inkişafına müsbət təsir göstərir.

Ümumi olaraq qeyd etmək olar ki, sənayenin inkişaf etməsi həmin ölkənin inkişaf səviyyəsindən, iqtisadiyyatından, müstəqillikdən və bir çox digər amillərdən asılıdır (İbrahimov İ.H., Rüstəmov İ.S., Axundov V.C., 2019).

Ölkələrin inkişaf etdiyi, rəqəmsal inqilab və qloballaşma dövründə ixrac potensialı ölkələr üçün əsas meyara çevrilmişdir. Hazırda inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə ixracın artırılması istiqamətində iqtisadi araşdırmalar edir. Bu sahədə İxracın iqtisadiyyatın inkişafına təkan verdiyi yoxsa iqtisadi inkişafın ixrac potensialını artırması haqqında bir çox alimlər fikirlər irəli sürmüşdür. Ümumi nəticə olaraq bütün ölkələr iqtisadiyyatını inkişaf etdirməyə səy göstərir. Qeyri-neft sənayesini araşdırma zamanı və ixrac potensialının formalaşdırılması onun artırılması istiqamətlərində bir çox beynəlxalq ekspertlərin fikirləri nəzərə alınmalıdır. Çünki ekspertlər iqtisadi fikir məktəbləri (merkantilis, klassik, neoklassik, fiziokrat) tərəfindən irəli sürülmüş ixrac, xarici ticarət, istehsala nəzər salıblar (Rzayev Ş.M., Əliyeva L.Z., 2018).

İqtisadi artıma nail olmaq üçün ixrac artırılması və idxal daxili resurlar hesabına ödənilməlidir və sərvət toplamağın yeganə yoluda ölkədəki ixracın

artırılması ilə əlaqədardır. Buna görədə ixrac ilə istehsal arasında geniş əlaqə yaradılmalıdır. Bu fikirlərə görə gömrük rüsumları ölkədə yüksək olmalıdır. Beləliklə həmin ölkədə istehsal inkişaf edəcək, rəqabət qabiliyyətli məhsul istehsalı artacaq, kənd təsərüfatının inkişafına təkan verəcək. Merkantilizm təmsilçiləri T.Man, A.Monkretyen, A.Serr, U.Stafford (Smit A., 2015).

Məhsullar ixrac edilməlidir prinsipinə əsaslanan C.S.Mill bildirirdi ki, məhsul ixrac edildiyi zaman daha çox xarici ölkələrdə tanınır və beləliklə ölkədə tələbatını yerli istehsal hesabına ödəyir və idxalı azaldır.

Klassik məktəb nəzəriyyəsinə görə ölkədə ixrac və idxal tam azad zona şərtləri altında olmalıdır (https://akinchi.org/iqtisadi-nezeriyyeler/, 2021).

Ölkədəki ixrac potensialı həmin ölkədəki təbii sərvətlərdən asılıdır. Çünki istehsal olunan məhsulun əmtəəsi ölkənin təbii sərvətləri hesabına ödənildiyi zaman həmin ölkə əmtəə üstünlüyü əldə edəcək (Neoklassik məktəb-E.Xekşer və B. Olin) (Rzayev Ş.M., Əliyeva L.Z., 2018).

R.Consun fikrincə ixrac artdıqca hər bir ölkədə ixrac yönümlü məhsul istehsalı artacaq. İdxal isə azalacaq. Belə olduğu zaman iqtisadi artım həm sürətlənə həmdə zəifləyə bilər. Çünki ixrac yönümlü məhsul istehsalı ilə məşğul olan sahibkarların gəliri artacaq, idxal yönümlü məhsul istehsalı ilə məşğul olan sahibkarların gəliri azalacaq (Rzayev Ş.M., Əliyeva L.Z., 2018).

Beləliklə iqtisadi nəzəriyyələrdən belə nəticəyə gələ bilərik ki, dövlətin iqtisadiyyata müdaxiləsi azaldılmalı, milli iqtisadiyyat dünya iqtisadiyyatına uyğunlaşmalı və çıxışı əldə etməli və liberallaşma təmin edilməlidir. Bütün bunları araşdırdığımız zaman sənayenin rolu, ixraca təsir etməyi danılmazdır. Lakin halhazırkı dövrdə müqayisəli üstünlüklər nəzəriyyəsi dünyadakı siyasi-iqtisadi vəziyyətlə uyğun deyildir (https://az.warbletoncouncil.org/ventaja-comparativa-6446, 2021).

Xarici ticarətin inkişafına yönəlmiş nəzəriyyələrdən biridə M.Porterin nəzəriyyəsidir. Həmin nəzəriyyədə rəqabətə davamlılıq, rəqabəti şərtləndirən 4 amil göstərilmişdir.

1. Bazar tələbləri və onun şərtləri;
2. Məhsulların eynicinsliyi və sahələrin oxşarlığı;

3. Bazar strategiyaları və rəqabətə davamlılıq;

4. Bazar amilləri (İmranov A., və Mustafayev A., 2013).

Bu nəzəriyyəni Azərbaycanda qeyri-neft sektoru və ixrac potensialına tətbiq etsək aşağıdakı nəticələri alarıq:

1. Azərbaycanda kifayət qədər resurs vardır və bu resurslar qeyri-neft sənayesinin inkişafına geniş imkan yaradır. Həmçinin ölkəmizdə olan əmək resurlarıda sənaye inkişafı üçün mühüm əhəmiyyət kəsb edir;

2. Qeyri-neft sənayesinin inkişafı iqtisadiyyatın inkişafında əsas meyarlardandır. Buna görədə həm ölkəmizdə, həmdə dünyada qeyri-neft sənayesinin inkişafına daha çox əhəmiyyət verirlər;

3. Hal-hazırda ölkəmizdə inkişaf edən edən qeyri-neft sektoru müasir tələblərə cavab verir. Bunun nəticəsi olaraq ölkəmizdə xarici iqtisadi əlaqələr genişlənir, rəqabət qabiliyyəti məhsul istehsalı artır;

Qeyri-neft sənayesinin inkişafı dünyada baş verəcək devalvasiyadan, böhrandan az təsirlənmək yoludur. Burdada ən önəmli meyar kimi qeyri-neft sənayesinin inkişafına yeni mexanizimlər vasitəsi ilə həyata keçirilməlidir. C.Stiqlitz - "Neft ehtiyatları həmin ölkəyə qisamüddətli xoşbəxtlik gətirə bilər, lakin ehtiyatların düzgün istifadəsi və gəlirlərin düzgün bölgüsü uzunmüddətli dövrdə sabitlik vəd etmir." Alimin əsas fikirlərində biridə "holland sindromu" dur. Onun fikrincə resurslar düzgün istifadə edilməsə və ixrac potensialı artırılmasa ölkədə holland sindromu ilə üzləşəcək. Holland sindromu ölkənin valyutasının dəyərsizləşməsidir. Belə ki, ölkədə ixrac hesabına rəqabət qabiliyyətli məhsul istehsalı artır. Bu zaman valyutası digər valyuta qarşısında dəyər qazanır və məhsulları baha qiymətə satır. Lakin valyuta dəyər qazandığı üçün idxalı ucuz qiymətə həyata keçirir (C.Stiqlitz, 2004).

BMT-nin Beynəlxalq Standart Sənaye Klassifikatoruna və Avropa İttifaqının İqtisadi Aktivlik Klassifikatoruna görə sənaye 4 sahəyə və bu sahələrdə 30 yarımsahəyə bölünür.

1) Qeyri-neft sənayesi-23 yarımsahə

Yeyinti məhsulları və içkilərin istehsalı;

1. Tütün məmulatların istehsalı;
2. Tekstil istehsalı;
3. Paltar istehsalı, xəz rəngləməsi;
4. Dəri istehsalı; baqaj, çanta, yəhər və ayaqqabı istehsalı;
5. Taxta və taxta məhsullarının istehsalı (mebel istisna olmaqla), toxuma və saman məhsullarının istehsalı;
6. Kağız və kağız məhsullarının istehsalı;
7. Poliqrafiya məhsullarının istehsalı;
8. Koks, son neft məhsullarının və nüvə yanacağı məhsullarının istehsalı;
9. Kimya sənayesi məhsullarının istehsalı;
10. Rezin və plastik kütlə məhsullarının istehsalı;
11. Digər qeyri-metal mineral məhsullarının istehsalı;
12. Əsas metalların istehsalı;
13. Hazır metal məhsullarının istehsalı (maşınqayırma və avadanlıq istisna olmaqla);
14. Maşınqayırma və avadanlıq istehsalı;
15. Ofis, mühasibat və kompüter avadanlığının istehsalı;
16. Elektrik avadanlıq və maşınların istehsalı;
17. Radio, televiziya və rabitə avadanlığının istehsalı;
18. Tibbi, dəqiq və optik alətlərin, saatların istehsalı;
19. Mühərrikli maşınların, treyler və yarım-treylerlərin istehsalı;
20. Digər nəqliyyat vasitələrinin istehsalı;
21. Mebel istehsalı; digər məhsulların istehsalı (oyuncaq, musiqi alətləri və s.);
22. Tullantıların təkrar emalı.

2) Mədənçıxarma və neft məhsullarının emalı sənayesi - 4 yarımsahə

1. Kömür hasilatı, torfun hasilatı;
2. Neft və təbii qazın hasilatı, Neft və təbii qazın hasilatı ilə bağlı xidmətlər (geodeziya) istisna olmaqla;
3. Uran və tor filizlərin hasilatı;
4. Metal filizlərin hasilatı;

3) Elektrik enerjisi, qaz və su təchizatı - 2 yarımsahə

1. Elektrik enerjisi, qaz, soyuq və isti su təchizatı;
2. Suyun yığılması, təmizlənməsi və paylanması.

4) Tikinti sənayesi - 1 yarımsahə

1. Tikinti materiallarının istehsalı (Aras O. N., Süleymanov E., 2016).

Bu sənaye sahələrinin bir-birindən fərqləndirici əlamətləri vardır. Bunlar aşağıdakılardır:

1. Məhsulun iqtisadi təyinatı;
2. İstehsal zamanı istifadə edilən texniki ve texnoloji xüsusiyyətləri;
3. İstehsal zamanı istifadə edilən xammal.

Sənayeləşmənin yeni dövrü 20-ci əsrdə başlamışdır. Bu dövrdə Azərbaycada yanacaq-energetika sənayesi aparıcı sahə idi. Buna səbəb isə 1994-cü il 20 sentyabrda "Əsrin müqaviləsi"nin imzalanması olmuşdur. Ölkəmizdəki yeni sənaye dövrü Heydər Əliyevin sayəsində başlamışdır. Sovet İttifaqı dövründə ixtisaslı kadrların artırılması üçün ali təhsil müəssisələrinə tələbələr göndərilmişdir. Sovet İttifaqı süqut etdikdə bu iqtisadiyyatda ağır böhranlarla nəticələnmişdir.

**Yüngül sənaye** - Ölkəmizdə inkişaf edən sənaye sahələrindən biridə yüngül sənayedir. Bu sahədə ixrac potensialıda yüksəkdir. Bu sahədə əsas ixrac edilən məhsullar pambıq, barama, dəri aiddir. Yüngül sənaye sahələri: toxuculuq, ayaqqabı istehsalı, tirkotaj, xalçaçılıq, gön dəri sahələrindən ibarətdir.

Yüngül sənayenin xüsusiyyətləri:

- ❖ Aşağı əməktutumlu;
- ❖ Ucuz xammal;
- ❖ Daşınma xərclərinin aşağı olması;
- ❖ Çirkləndirmə səviyyəsinin aşağı olması.

Yüngül sənaye kimya sənayesi ilə əlaqəlidir. Yüngül sənayedə istifadə edilən suni liflər (viskoz), sintetik liflər (neft və kömürdən) kimya sənayesi tərəfindən hazırlanır (https://osmanemin.wordpress.com/2017/07/09/metallurgiyas%C9%99nayesix%C9%99rit%C9%99-sxem/, 2021).

Yüngül sənaye əsasən inkişaf etməkdə olan ölkələrdə daha çox inkişaf etsədə, bütün dünyada inkişaf etmişdir. Əsasən İEOÖ-də inkişaf etmə səbəbi ucuz xammal və ucuz işçi qüvvəsinə malik olmalarıdır. 19-cu əsrdən yüngül sənaye inkişaf etmişdir (https://www.azerbaijans.com/content_720_az.html, 2021).

**Yeyinti sənayesi** - Ölkəmizdə əsas sənaye sahələrindən biridə yeyinti sənayesidir. Yeyinti sənayesi ölkəmizdə işçi sayına görə və istehsal olunan məhsul sayına görə ölkədə birinci yerdədir. Yeyinti sənayeləri: konserv, içki, balıqçılıq və s. aiddir. Bu sənaye məhsulun ilkin emalından-son emalına, təkrar emalına qədər olan bütün mərhələləri əhatə edir. Ölkədəki ərzaq fondu və ərzaq təhlükəsizliyidə yeyinti sənayesi sahəsində formalaşır. Strateji ərzaq ehtiyatlarının yaradılmasında, fövqəladə vəziyyət zamanı ərzaq yardımı yüksək olan ölkələrdə yeyinti sənayesi inkişaf edən ölkələrdir.

Yeyinti sənayesinin inkişaf etməsi ölkəmiz üçün bir çox üstünlüklər yaradır. Bu sahədəki üstünlükləri müəyyən etmək, həm ölkədəki sənayeyə, həmdə daxili və xarici investisiya axınının artırılmasında əhəmiyyətli rol oynayır. Bu üstünlüklər aşağıdakılardır:

- Yeyinti sənayesinin ölkəmizdə qədim zamanlardan inkişaf etməsi;
- Sənayenin inkişafı üçün kifayət qədər xammal resurslarının olması;
- Əlverişli coğrafi mövqe;
- Respublikada sənaye müəssisələrinin düzgün ərazilərdə yerləşdirilməsi;
- Ölkəmizdəki bitki və məhsulların keyfiyyətinin yüksək olması.

Sənayenin inkişafı üçün yarmarkalar, auksionlar, sərgilərin təşkili əsas amillərdəndir. Həmçinin bu təşkil etmələr yeyinti sənayesinin rəqabət qabiliyyətinin artmasında, məhsulların dünya bazarlarında tanınmasında rol oynayır. Bu sənayenin inkişafı üçün aşağıdakı şərtlər əsasdır:

- İnvestisiya cəlb edilməsi (daxili və xarici);
- Yüksək texnologiyalar ilə təmin edilmə;
- Emal müəssisələrinin yaradılması (meyvə-tərəvəz yetişdirilən bölgələrdə) ;
- İxrac üçün yeni xarici iqtisadi əlaqələrin yaradılması;

- ❖ Xarici və daxili bazarın tələbatını ödəyən yüksək keyfiyyətli, rəqabət qabiliyyətli məhsul istehsal edilməsi (https://www.azerbaijans.com/content_719_az.html, 2021).

**Tikinti sənayesi** - Ölkəmizdə kifayət qədər təbii resursların olması qeyri-neft sənayesinin inkişafında xüsusi rol oynayır. Təbii resurs və xammal mövcudluğu ölkədə bu sahələrin resursla təmin edilməsində və maya dəyərinin aşağı olmasında rol oynayır. Faydalı qazıntılarının olması qeyri neft sənayesi ilə birlikdə tikinti sənayesinin inkişafınada təkan verir. Tikinti sənayesinin inkişaf etməsi ölkədə iqtisadi potensialın artırılmasında, sahəvi və regional infrastukturun inkişafında iştirak edir. Texnoloji yeniliklərin tikinti sənayesinə tətbiq edilməsi nəticəsində istehsal edilən məhsullar dünya standartlarına cavab verir və ixrac potensialının artırılmasına şərait yaradır. Halhazırda isə əsas tendensiya "yaşıl" tikinti materialları inkişafıdır. "Yaşıl" tikinti materialı istehsalında əsas meyar insan sağlamlığının və ekologiyanın qorunmasıdır. Bu xüsusiyyətlərə aşağıdakılar aiddir:

- ❖ Texniki baxış xərclərinin azaldılması;
- ❖ Enerji itkilərinn azaldılması;
- ❖ İnsan sağlamlığının qorunması;
- ❖ Yaşayış sahəsinin təmiri ilə bağlı xərclərin daha aşağı salınması.

Yaşıl tikinti materiallarına tələbatın artmasında əsas səbəblər - təbiət ilə bağlı qanunvericiliyin sərtləşdirilməsi, enerjinin qiymətinin yüksəldilməsi, maya dəyərinin aşağı olmasıdır (https://penetron.az/tikinti-materiallarinin-istehsali-sah%C9%99si-haqqinda/, 2021).

**Kimya sənayesi** - Müasir dünya iqtisadiyyatında kimya sənayesi digər sənaye sahələrinin inkişafında xüsusi rola malikdir. Kimya sənayesində istehsal edilən mineral gübrələr kənd təsərrüfatının inkişafına, sintetik liflərin hazırlanması yüngül sənayenin inkişafına və s. təsir edir. Həmçinin kimya sənayesi məişət əşyalarıda istehsal edərək insanların tələbatını ödəyir (https://www.azerbaijans.com/content723az.html, 2021).

**Maşınqayırma və metallurgiya sənayesi** – ölkəmizdə inkişaf edən sənaye sahələrindən biridə maşınqayırma və metallurgiya sənayesidir. Ölkədə baş verən

iqtisadi və sənaye böhranından çıxarılmasında maşınqayırma sənayesi xüsusi rola malikdir. Lakin ölkəmizdə maşınqayırma sənayesi zəif inkişafa və dünya standartlarına cavab vermir. Buna səbəb isə müstəqillik əldə etdikdən sonra MDB ölkələrində və Rusiya bazarlarında rəqabət qabiliyyətinin aşağı olması və beləliklə bazarlardan çıxmasına səbəb oldu. Lakin daxili tələbatı təmin etmək üçün sənaye sahəsinin inkişafında müəyyən tədbirlər həyata keçirilir. Bunun üçün ən effektiv metodlardan biri investisiya cəlb edilməsidir. Ölkəmizdə metallurgiya sənayesi inkişaf etmişdir. Metallurgiya sənayesi 2 hissədən ibarətdir:

1. Qara metallurgiya;
2. Əlvan metallurgiya.

Metallurgiya sənayesi müəssisələri əsasən təbii sərvətlərə yaxın ərazidə yerləşdirilməlidir. Çünki metallurgiya sənayesi yüksək xammal tutumlu,daşıma zamanı yaranan çətinliklər və yüksək enerji tutumlu sənayedir. Metallurgiya sənayesinin inkişafı üçün aşağıdakı imkanlar mövcud olmalıdır:

1. Enerji resursu;
2. İxtisaslı kadr ehtiyatı;
3. Xammal (metal tullantıları və meta qırıntıları);
4. Metal konsturksiyadan istifadə.

**Qara metallurgiyada istehsal prosesi aşağıdakı ardıcıllıqla edilir:**

Dəmir fizilizin hasilat – saflaşdırılması - çuğun, poladın əridilməsi - prokat alınması.

Qara metallurgiyada istehsal zamanı istifadə edilən əsas xammal məhsulu koklaşan kömür və dəmir filizidir. İstehsal olunan əsas məhsullar isə çuqun, polad, prokatdır. İstehsalat əsasən metallurgiya kombinatlarında həyata keçirilir. Çünki kombinatlardan istifadə zamanı məhsulun maya dəyəri aşağı düşür, əmək məhsuldarlığı artır. Son illərdə İEÖ metal əvəzedicisi kimi plastik kütlədən istifadəni artırıb və bunun nəticəsi olaraq qara metallurgiya inkişafı azalmışdır. Ucuz işçi qüvvəsinə və bol xammala sahib olma nəticəsində əsasən İEOÖ daha sürətlə inkişaf edir. Çirkli sənayelər əsasən İEOÖ köçürülmə nəticəsində və dəmir fizilizin daha ucuz başa gəlməsi nəticəsində Qərbi Avropadakı bəzi dəmir filizi yataqlarının

hasilatı dayandırılmışdır. Qara metallurgiya istehsal edilən metalın 94% təşkil edir. Ölkəmizin iri metallurgiya sənayeləri mövcuddur. Sumqayıt və Gəncə aliminium zavodu, Bakı Polad tökmə zavodu, Daşkəsən Filizsaflaşma və s. kimi müəssisələri göstərə bilərik. Əlvan metallurgiya əsasən Gəncə - Qazax və Naxçıvan bölgələrində, Qara metallurgiya isə əsasən Bakı, Sumqayıt və Daşkəsəndə yerləşir.

Metallurgiya sənayesinin inkişafı üçün prezident fərmanları və sərəncamlarıda xüsusi rol oynayır. Bunun nəticəsidir ki, 23 aprel 2013-cü ildə "Azərbaycan Polad İstehsal Kompleksi"QSC inşa edilmişdir. Həmçinin sənaye inkişafında Prezidentin "2015-2020-ci illər üçün Dövlət Proqramı"-da nəzərdə tutulmuşdur. Bütün bu tədbirlər neft sənayesindən asılılığı azaltmaq, insanların yaşayış səviyyəsinin yüksəldilməsinə, "Holland Sindromu"nun qarşısının alınmasında, iqtisadiyyatın inkişafı, milli iqtisadiyyatın formalaşmasında əsas tədbirlər olmuş və qeyri-neft sənayesinin inkişaf etdirilməsi istiqamətində addımlar atılmışdır (Abbasov İ.M, Əliyev T., 2018).

## 1.2. İxrac potensialının artırılmasına metodları

Qloballaşma dövründə iqtisadiyyatı inkişaf etdirmək, dayanıqlı və davamlı inkişafa nail olmaq və yüksək gəlirə nail olmaq üçün qeyri-neft sənayesi inkişaf etdirilməli əsas meyarlardandır. Bu inkişafa nail olmaq üçün dünya bazarına uyğunlaşmalı, rəqabət qabiliyyətli məhsul istehsalı artırılmalı və ixrac potensialı inkişaf etdirilməlidir. Rəqabət bir neçə şəxs arasında bəhsləşmə deməkdir. Rəqabət iqtisadi inkişafa, ETT-nin istehsala tətbiqinə, tələbatı daha dolğun ödəməyi nəzərdə tutan, bazar iqtisasiyyatın əsas atributudur. M.Porterin rəqabət qabiliyyətlilik nəzəriyyəsində klassiklərdən fərqli olaraq bildirirdi ki, "milli inkişaf irsən olmur, yaradılır. Klassiklərin fikrincə inkişaf ölkədəki resurslardan, işçi qüvvəsindən asılıdır. Lakin M.Porter rəqabət qabilliyətini ölkə sənayesinin inkişaf səviyyəsindən, modernləşməsindən, ETT-ni istehsala tətbiq səviyyəsindən asılı olduğunu bildirirdi". Rəqabət qabiliyyətlik ölkənin iqtisadiyyatının davamlı və dayanıqlı inkişafı deməkdir. Hər bir ölkə uğurlu iqtisadiyyata nail olmaq üçün rəqabətə davamlı olmalı, dünya bazarına çıxış əldə etməli və geniş məhsul çeşidi olaraq

bazarda öz yerini tutmalıdır (http://www.ilkinmanafov.com/2013/09/ilk-d%C9%99rsimiz-adiu-porterin-r%C9%99qab%C9%99t-strateqiyasi/, 2021).

Tədqiqat işinin bu bölməsində Respublikamızda qeyri-neft sənayesinin ixrac potensialı və ixrac potensialının artırılması istiqamətində araşdırmalar edilmişdir. Dünyada inkişaf etmiş ölkələrə diqqət etdiyimiz zaman görə bilərik ki, iqtisadiyyatın təkcə bir sahəsi deyil, təsərrüfatın bütün sahələrini əhatə edir. Azərbaycanda qeyri-neft sənayesinin inkişafına istehsal olunan məhsul çeşidin artırmaqla nail olmaq olar. İxrac potensialının artırılması üçün aşağıdakı şərtlərə diqqət edilməlidir:

**1. İxrac edilən məhsula tələbat olmalıdır**

İxrac edilən məhsul dünya bazarı ilə müqayisə etdiyimiz zaman çox az hissəsini təşkil edir. Buna görədə ixrac edilməli məhsul əvvəlcə dünya bazarında tələbat olmalıdır. Bundan başqa məhsulun ixrac potensialı araşdırarkən kəmiyyətcə və keyfiyyətcə dünya standartlarına cavab verməlidir. Satışa çıxarılan məhsulun qiyməti daxili bazarda, dünya bazarına nisbətən ucuzdursa deməli ixrac potensialı mövcuddur. İxrac potensialı müəyyənləşdirilərkən qiymətlərdə nəzərə alınmalıdır.

**2. Rəqabət qabiliyyətli məhsul istehsalı**

Məhsul istehsal edilərkən onun rəqabət qabiliyyəti, digər məhsullarla müqayisə edilməsi nəzərə alınmalıdır. Rəqabətə davamlı məhsul istehsalı, həmin məhsulun dünya bazarında üstünlük əldə etməyinə və ixrac potensialının artmasına səbəb olur. Məhsulların rəqabət qabiliyyəti - həmin məhsulun maya dəyəri, istehsal olunacaq məhsulun kəmiyyət və keyfiyyətcə yüksək olması əsas meyardır.

**3. Təbii resursların mövcudluğu**

Məhsulun istehsalı üçün əsas meyar təbii resursların mövcudluğudur. Ölkədəki təbii sərvətlərdən düzgün istifadə və mənimsənilməsi həmin ölkənin ixrac edəcəyi məhsulun maya dəyərinin ucuz başa gəlməsinə səbəb olur. Beləliklə qeyd edə bilərik ki, ixrac potensialının formalaşmasında həm istifadə edilən, həm də saxlanılmış təbii sərvətlər durur.

**4. İxtisaslı kadr və əmək resurslarının mövcudluğu.**

Texnologiyanın inkişaf etdiyi dövrdə ixtisaslı kadrlara daha çox tələbat yaranır. İstehsal zamanı əmək resurslardan düzgün istifadə istehsala müsbət təsir edir.Bu

səbəbdən işçilərin ixtisasının artırılması, işçilərin təkmilləşdirilməsinə xüsusi diqqət edilməlidir.

**5. Elmi-texniki yenilik**

İnkişaf edən dövrdə istehsalda əsas meyar elmi-texniki yeniliklərdən istifadə edilməlidir. Hər hansı ölkə elmi-texniki yenilik hesabına ixrac edilən sənaye məhsullarında üstünlük əldə edibsə, bu həmin ölkənin həmişə öndə olacağı mənasını kəsb etmir. Çünki zaman keçdikcə həmin texnologiyalardan digər ölkələrdə istifadə etməyə başlayacaqdır. Bu səbəbdəndə daimi yenilikləri istehsala cəlb etmək lazımdır.

**6. Xammal ixracını azaltmaq, emal sənayesini inkişaf etdirmək**

Məlum olduğu kimi İEÖ əsasən ucuz başa gəldiyinə görə xammal ixracına üstünlük verirlər. Lakin son dövrlərdə texnoloji və elmi yenilikləri nəzər yetirdiyimiz zaman əsasən xammal əvəzedicilərindən (sintetik) istifadə dahada genişlənmişdir. Buna görədə xammal tutumlu məhsul ixracı getdikcə zəifləyir və əsasən emaledici sənaye inkişaf sürətlənir.

**7. Liberallaşdırılma**

Dünya iqtisadiyyatında ixrac potensialında əlaqələrin böyük əhəmiyyəti vardır. İxrac potensialının artırılması üçündə azad iqtisadi zonalar yaradılmalı, yarmarkalar təşkil edilməli və istehsal edilən məhsulların dünya bazarına tanıdılmasıda ixrac potensialını artırır.

**8. İnvestisiya cəlb edilməsi**

Ölkəmiz əsasən neft sənayesi üzrə ixtisaslaşdığı üçün qeyri-neft sənayesi nisbətən az inkişaf etmişdir. Qeyri-neft sənayesinin inkişafının sürətləndirilməsi üçün uyğun metodlardan biridə investisiya cəlb edilərək istehsalı artırılaraq və bunun nəticəsi olaraqda ixrac potensialı yüksəldiləcək.

**9. Dövlət proqramları və sərəncamları**

Prezident İlham Əliyevin fərmanları Azərbaycan idxal və ixracın tənzimlənməsində əsas həll edici rol oynamışdır. Fərmanda aşağıdakı məsələlər öz yerini tapmışdır:

❖ Dünya bazarı ilə əlaqələrin genişləndirilməsi;

- ❖ Bazarlara çıxışı asanlaşdırmaq,qanunsuzluqların qarşısının alınması;
- ❖ İxracın artırılması üçün stimullaşdırıcı tədbirlər həyata keçirmək;
- ❖ Əməliyyatların qaunuvericilik bazası çərçivəsində həyata keçirilməsi;
- ❖ İnvestisiyaların cəlb edilməsini artırmaq və cəlb edilmiş investisiyaların sığortalanması;
- ❖ Qeyri-neft sənayesinin inkişafının sürətləndirilməsinə görə dövlətin verdiyi yardımları, subsidiya və subvensiyaları sadələşdirmək.

Bütün bunları nəzərə alaraq Azərbaycanda ixrac potensialının artırılması üçün aşağıdakı metodlar edilməlidir:

- ❖ Ənənəvi istehsalın azaldılması və yeni texnika ilə istehsalın artırılması: Müasir dövrdə yalnız ənənəvi istehsal üsulundan istifadə edərək rəqabət qabiliyyətli məhsul istehsalı qeyri-mümkündür. Buna görədə istehsalçılar istehsal edəcəyi məhsula, istifadə etdiyi texnologiyaya, əmək resurslarından düzgün istifadəyə önəm verməlidir;
- ❖ Milli brendin yaradılması: İstehsal edilən və ixrac edilən məhsullarda milli brendin yaradılması həm məhsulun, həmdə ölkənin tanıdılmasında əhəmiyyətlidir. Milli brendin yaradılması ölkədə istehsal edilən məhsulların xarici bazarlarda tanıdılması üçündə bir vasitədir. Belə ki, artıq brend xarici bazarda tanınacaq və bazara yeni məhsul çıxardılacağı zaman onun keyfiyyəti haqqında alıcılarda məlumat formalaşmış olacaq;
- ❖ İnkişafın təmin edilməsi: Ölkədə qeyri-neft sənayesinin inkişafı həm iqtisadiyyatın davamlı inkişafı, həmdə mənfəətin gəlirliyini təmin edir. Neft sənayesində asılılıq azalır və baş verəcək devalvasiya zamanı ölkənin iqtisadiyyatının böhrandan az təsirlənməsinə səbəb olur;
- ❖ Qanunvericiliyə əməl olunması: Ölkədə həyata keçirilən bütün əməliyyatların qanunvericilik bazasına uyğun həyata keçirilməsinə diqqət edilməlidir. Bütün sahələr üçün bərabər hüququn təmin edilməsi və ixracın stimullaşdırılmasına təkan verməlidir;
- ❖ Xərclərin azaldılması: Uğurlu iqtisadiyyata nail olmaq üçün istehsalın inkişafı ilə yanaşı ixracda səmərəli təşkil edilməlidir. Hər hansı məhsulun istehsalı

və dünya bazarına ixracı artıq həmin məhsulun effektivliyindən, ondan daxil olan gəlirlərin artması isə səmərəlilikdən xəbər verir. Səmərəliliyin artırılması üçün xərclər minimuma endirilməlidir. Bu xərclərə kapitalı, maya dəyərini, vaxtı və digər xərcləri aid etmək olar (Şəkərəliyev A.Ş., 2016 və Şəkərəliyev A.Ş., Yadulla Y.M., Aslanova M.M., 2016).

Təqib edən inkişaf - bu termin İEÖ təcrübə metodlarından istifadə edərək inkişaf etməni təmin etmə deməkdir. Belə inkişafda isə innovasiyalar tətbiqi olmadan mümkün deyil. Bu metodda əsas olaraq iqtisadi artıma nail olmaq, səmərəliliyin yüksəldilməsi, rəqabət qabiliyyətinin yüksəldilməsi əsas meyardır. Buna görə də texnologiyaların inkişaf etdirilməsi, texniki yeniliklər üçün fikirləri reallaşdırmaq əsasdır. Burda həm dövlətin həm də biznes mühiti rol oynayır. Bu inkişafı təmin etmək üçün aşağıdakı amillər modernizasiya kimi təklif edilir:

1. Makroiqtisadi sabitlik: Büdcə xərclərinin səmərəliliyinin yüksəldilməsi, yeni iş yerlərinin yaradılması, büdcənin dayanıqlılığını təmin etmək, iqtisadiyyatın yenilənməsi- mövcud olan sənaye sahələrini saxlamağı nəzərdə tutmur. Burda əsas məsələ daha çox fayda əldə edəcəyimiz yeni müəssisələr yaratmaq, ənənəvi istehsal prosesini müasir texnologiya ilə əvəzləmək hesabına real iqtisadi artımı təmin edərək sənayenin dayanıqlı inkişafını təmin etmək əsas meyardır. Azərbaycanda iqtisadiyyat inkişaf etdiyi üçün əsas rəqabət qabiliyyətli sahələrin inkişaf etdirilməsi məsələsi təhlil edilməli, üstünlük edən sahələrin kordinasiyası təşkil edilməlidir;
2. İqtisadiyyatın daxili və xarici amillərə uyğunlaşdırılması: İqtisadiyyatda daxili amillər dediyimiz zaman əmək haqqı, resurslar və s. nəzərdə tutulur. Xarici amillər isə sənaye sahəsinə xarici investisiya, dünya bazarlarına çıxış nəzərdə tutulur. Hər hansı sənaye sahəsi yaradılarkən və inkişafında bu amillər nəzərə alınmalıdır. Çünki ölkəmizdəki bəzi sahələrin inkişafı xarici amillərə uyğun deyil ki, buda həmin sənaye sahəsinin zəif inkişaf etməsinə və ya ləğvinə səbəb ola bilər. Məs. maşınqayırma sənayesi;
3. Marketin tədqiqatları və texnoloji innovasiyalar: Dünya bazarında rəqabət mübarizəsinin güclənməsi, istehsala innovasiya yeniliyin tətbiq edilməsi və marketinq tədqiqatlarıda inkişafı təmin edən meyarlardandır. Belə ki, yalnız texniki-

texnoloji yeniliklərdən istifadə edərək əmək məhsuldarlığının artırılması mümkün deyildir. Çünki əldə edilmiş texnoloji yenilikləri yaranmış imkanları təhlil edərək iqtisadiyyata tətbiq edilməsi istehsal prosesinə müsbət təsir edəcəkdir. İqtisadi artım zəif olan sahələrdə texnoloji yeniliklərdən istifadədə aşağı səviyyədə olacaqdır ki, buda həmin sənayenin inkişafını daha da zəifləđəcək. Buna görədə sənayenin inkişafına nail olmaq üçün imkanlardan səmərəli istifadə edilməli və əsasəndə emal sənayesinin inkişafına xüsusi diqqət edilməlidir. Emal sənayesinin inkişafını artırmaq üçün beynəlxalq əmək bölgüsü metodlarından istifadə edilməlidir;

4. Rəqabət qabiliyyətinin formalaşması: İqtisadiyyatda rəqabət qabiliyyətinin formalaşmasına həmin sənaye sahəsində müasir texnologiyaların tətbiqi, yerli ehtiyatlardan səmərəli istifadə etməklə nail olmaq mümkündür. Rəqabət qabiliyyətinin formalaşması həmin ölkədə maliyyə asılılığını minimuma endirir. Burda əsas məqamlardan biridə ölkədəki iqtisadi və sosial prosesləri düzgün idarə etməkdir. Tam rəqabət qabiliyyətli bazarın formalaşmasına dövlətin iqtisadiyyata müdaxiləsi ilə mümkün olur (Şəkərəliyev A.Ş., 2016).

Qeyri-neft sənayesində ixrac potensialını 3 qrupa bölünür:

**1. Mikroiqtisadiyyat**

- Daxili bazarın inkişafı;
- İxracın diversifikasiyası;
- Rəqabət qabiliyyətli məhsul istehsalı.

**2. Qeyri-neft sənaye sahələri**

- İxracın stimullaşdırılması;
- Sahibkarlığın inkişafı;
- İxracın tənzimlənməsi qanunları.

**3. Makroiqtisadiyyat**

- Milli iqtisadi artım;
- İnvesisiya cəlbi;
- Rəqabət qabiliyyətinin artırılması.

2020-ci pandemiya dövrü ilə əlaqədar bütün ölkələrin iqtisadiyyatına təsir etmişdir. Lakin ölkəmizdə bu dövr iqtisadiyyata ağır təsirlər etməmişdir. Buna səbəb isə qeyri-neft sektorunun inkişafı olmuşdur. Bu dövrdə qeyri neft sektorunda 11 % artım olmuşdur. Buna səbəb isə İlham Əliyevin qeyri-neft sektonun inkişafına xüsusi diqqət ayırdığı üçün olmuşdur (https://apa.az/az/maliyye_xeberleri/Azrbaycanin-qeyri-neft-ixraci-11percent-dn-cox-artib-635865, 2021).

**Cədvəl 1: 2020 ci ildə ölkəmizdə əsas ixrac edilən məhsullar: (Milyon ABŞ dolları ilə)**

| Məhsulun adı | 2019-cu il | 2020-ci il |
|---|---|---|
| Qızıl | 172,4 | 205,60 |
| Tomat(pomidor) | 189,30 | 201,40 |
| Pambıq mahlıcı | 122,40 | 131,90 |
| Fındıq ləpəsi | 124,20 | 113,60 |
| Xurma | 104,7 | 91,60 |
| İlkin formalı polipropilen | 65,7 | 64,50 |
| Elektrik enerjisi | 76,8 | 59,80 |
| Metanol | 64,6 | 51,20 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 60 | 48,80 |
| Digər | 974,50 | 883,00 |

**Mənbə:** Azərbacan Respublikasının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, "İxrac icmalı", yanvar 2021

Ölkəmizdə halhazırda iqtisadiyyatın inkişafı üçün liberallaşdırılmasına və ixrac proseslərinin sadələşdirilməsinə önəm verir. Prezident İlham Əliyev öz çıxışlarında sahibkarla dəstək və iqtisadiyyatın beynəlxalq iqtisadi qanunlarla tənzimlənməsinə önəm verdiyini bildirib. Liberallaşma üçün bir çox proqramlar, strategiyalar icra edilir.

### 1.3. Qeyri-neft sənayesinə institutsional yanaşmalar

İnstitular insanlar arasında əlaqənin təkmilləşdirilməsi, qeyri-müəyyənliyi minimuma endirmək üçün mövcuddur. Bu səbəbdən institutlar mentalitetin davamı hesab olunur. Belə demək olar ki fərqli fikirlər fəqli mentalitetlər, fərqli mentalitetlərdə fərqli sistem yaradır. D.Rodrik institutları dörd qrupa bölürdü:

1. Bazarlarda sağlam iş fəaliyyətini qoruyan institutlar - bura məhkəmə sistemi, siyasi güc, parlament aid edilir;

2. Makroiqtisadi sabitliyi təmin edən istitutlar - burda fiskal tənzimləmə və ya pul-kredit tənzimləmə metodlarından istifadə edərək bazarın sabitliyi qorunur;

3. Bazarları tənzimləyən institutlar - Bura qanunlar, ətraf mühitin mühafizəsi və s. aid edilir;

4. Bazarı qoruyan institutlar - bura bazar subyektlərini neqativ təsirlərdən qorumaq nəzərdə tutulur. Bura pensiya fondu və digər sosial fondlar aid edilir.

"Diversifikasiya institutları"- qeyri-resurs sahələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi, innovasiya potensialının gücləndirilməsi, bəzi hallarda ixrac bazarlarının müəyyənləşdirilməsi, ixracın dəstəklənməsi ilə məşğul olurlar. İqtisadi institutların nümunələri kimi: texnoparklar, sənaye parkları, investisiya fondları və s. qeyd edə bilərik. Lakin iqtisadi diversifikasiya həmişə uğurlu nəticələnmir. Bunun uğurlu nəticəsini əldə etmək üçün inkişaf institutları təkmil olmalıdır. (https://jamestown.org/program/economic-diversification-in-azerbaijan-and-its-geopolitical-implications/, 2021).

Ölkəmizdə iqtisadi divesifikasiya institutları aşağıdakılardır:

1. Sahibkarlığın İnkişaf Fondu (SİF);
2. Azərbaycan İnvestisiya şirkəti (AİŞ);
3. İxracın və İnvestisiyaların Təşviqi Fondu;
4. Aqrar Kredit və İnkişaf Agentliyi;
5. Sənaye-texnologiya parkları, sənaye məhəllələri və aqroparklar;
6. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi.

**1. SİF -** 1992-ci ildən fəaliyyətə başlamışdır. Bu fondun yaradılmasında əsas məqsəd KOS güzəştli kreditlərin, subsidiyaların verilməsi, inkişafına dəstək olmaqdan ibarət idi. Fəaliyyəti zamanı fondda yaranan maliyyə çatışmaazlığı fondun fəaliyyətini mane olurdu. Buna görədə 2002-ci il 17 avqustda İlham Əliyev fondun yeni əsasnaməsini təsdiq etdi.

Əsasnaməyə görə- KOS inkişafı dəstəklənməli, məşğulluğun artırılmasından ibarət idi. Hazırda SİF maliyyələşmə istiqamətləri aşağıdakılardır:

1. Soyuducu anbar tipli komplekslərin yaradılması;
2. İxracyönlü və rəqabət qabiliyyətli məhsul istehsalının dəstəklənməsi;

3. Müasir texnologiyalardan istifadə edən müəssisə sayının artırılması.

SİF iki maliyyə mənbəyi vardır:

1. Dövlət büdcəsi hesabına olan fond;
2. Fond hesabına əvvəlki illərdə verilimiş layihələrdən qaytarılan vəsait hesabına yaranan fond (http://www.e-qanun.az/framework/34254, 2021).

**2. Azərbaycan İnvestisiya Şirkəti (AİŞ)** - Bu strukturda əsas meyar sənaye müəssisələrinə daxili və xarici investorların cəlb edilməsini vasitəçi rolunu oynayır. AİŞ qeyri-neft sənaye sahəsinin inkişafına dəstək ola biləcək, investisiya partnyorlarını əməkdaşlığa dəvət edir. AİŞ investisiya prinsipləri aşağıdakılardır:

1. İstehsal ediləcək məhsulun ixrac yönümlü, idxal əvəzləyicisi olması;
2. Ölkənin qeyri-neft sektorlarına investisiya qoyuluşu;
3. İnvestorların hüququnun qorunması, korporativ idarəetmə prinsiplərinə əsaslanma;
4. Ölkədəki effektiv fəaliyyət göstərən müəssisələrə inestisiya fondlarının təsisi.

**3. İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO)** - 2003-cü ildə fəaliyyətə başlamışdır. Fondun əsas vəzifəsi istehsalçı ilə dövlət arasında əlaqələrin təmin edilməsidir. AZPROMO-nun yaradılmasında əsas məqsəd yoxsulluq səviyyəsinin azaldılması, milli iqtisadiyyatın hərtərəfli inkişafına nail olmaqdan ibarətdir. AZPROMO-nun fəaliyyət istiqamətləri aşağıdakılardır:

1. Made in Azerbaijan brendinin dünya bazarında tanıdılması;
2. İnvestorlarla əlaqənin yaradılması və investorların cəlb edilməsi;
3. İnvestisiya imicinin formalaşdırılması;
4. İnvestorlara xidmətin göstərilməsi;
5. Ölkənin qeyri-neft ixrac potensialının müəyyənləşdirilməsi;
6. Marketinq tədqiqatı;
7. Bazar araşdırmalarının edilməsi;
8. "İxrac Portalı"nın təşkil edilməsi;
9. Məsləhət xidməti (ixraca yönəlmiş şirkətlərə).

Fondun əsas xidmətlərinə istehsalçıları, ixracatçıları, ticarətçiləri, lisenziya sertifikatların verilməsi və digər zəruri informasiyalar ilə təmin etmək, hüquqi məsləhətlər və marketinq dəstəyi göstərmək daxildir (http://www.e-qanun.az/framework /34254, 2021).

**4. Aqrar Kredit və İnkişaf Agentliyi -** Agentlik 2004-cü ildə «Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında» sərəncamı ilə yaradılıb. Agentliyin əsas vəzifəsi aqrar sektor fəaliyyəti ilə məşğul olan şəxslərə dövlət dəstəyi, kreditlərin verilməsi və istifadəsini təmin edən icra hakimiyyətidir. Agentliyin əsas vəzifələri aşağıdakılardır:

❖ İnvestisiya cəlb edilməsi: Kənd təsərrüfatında ixrac ediləcək məhsulların istehsalı, emalı, sektorun inkişaf etdirilməsi üçün sahibkarlıq subyektlərinə investisiya cəlb etmək və ya kreditlə təmin etmək;

❖ Müqavilə öhdəliyi: Təşkilatlarla, qurumlarla və beynəlxalq tərəfdaşlarla bağlanmış müqavilə öhdəliyinin yerinə yetirilməsi;

❖ Maliyyə istifadəsi: Aqrar sektora cəlb edilən investisiyaların və ya kreditlərin istifadəsini düzgün istiqamətə təyin etmək;

❖ Dövlət dəstəyi: Kənd təsərrüfatı sektorunun inkişafında layihələrin, iqtisadi inkişaf üzrə proqramların təmin edilməsi.

Aqrar sektora cəlb edilən investisiya və kreditlər agentliyin kredit təşkilatları vasitəsi ilə bölüşdürülür. Kredit xəttinin ilkin maksimum qiyməti 1 mln-dan yuxarı ola bilməz. Kredit təşkilatlarında sektora veriləcək ilkin və sonrakı dövr üçün kredit xətti müəyyən edilir. Bütün bu tənzimləmələr müqaviləyə əsasən tənzimlənir (http://www.e-qanun.az/framework/34254, 2021).

**5. Sənaye-texnologiya parkları, sənaye məhəllələri və aqroparklar-** Dünyada və ölkəmizdə aqroparklar və məhəllələrin yaradılması modern iqtisadiyyatın tələbidir. Burda istehsalın daha təkmil inkişaf modellərindən istifadə olunur. Aqroparkların yaradılması əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, aqrar sektorların inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi və iqtisadi inkişafı təmin etmək və ixrac potensialının artırılması üçün müasir modeldir.

Ölkəmizdədə beynəlxalq standartlara cavab verən sənaye parkları, sənaye məhəllələri fəaliyyət göstərir.

"Azərbaycanın 2020: gələcəyə baxış inkişaf konsepsiyasında" qeyri-neft sektorunun inkişaf etdirilməsi, innovasiya yönümlü iqtisadiyyat əsas prioritet istiqamət hesab olunmuşdur. Ölkədə rəqabət qabiliyyətli və ixrac yönümlü istehsalın formalaşdırılması üçün yeni mexanizimlər, müasir prinsiplərə əsaslanan müəssisələr böyük əhəmiyyət kəsb edirdi. Biz bu müəssisələrə Sumqayıt kimya texnologiya parkını, Balaxanıda emal sənayesi üzrə sənaye parkını misal göstərə bilərik (http://www.e-qanun.az/framework/34254, 2021).

**6. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi -** 20 aprel 2016-ci ildə Prezidentin fərmanı ilə yaradılmışdır. Mərkəz makro və mikro iqtisadiyyatın təhlili, tədqiqatların aparılması, davamlı və dayanıqlı inkişafa nail olmaq üçün fəaliyyət göstərirdi. Burda əsas məqsəd proqnozlar və təkliflərin hazırlanması, həmin proqnozları dövlət qurumlarına təqdim edərək iqtisadi inkişafa nail olmaq üçün fəaliyyət göstərir. Mərkəz fəaliyyətlərindən biridə 2017-ci ilin 25 May tarixində yaradılmış "Bir Pəncərə" ixraca dəstək mərkəzinin fəaliyyətə başlamasıdır. Mərkəz fəaliyyətində sahibkarlıq subyekti kimi qeydiyyatdan keçərək, qeydiyyatdan keçən vergi ödəyicilərinə elektron xidmətin göstərilməsindən ibarətdir.

"Bir pəncərə" ixraca dəstəkdə az resurs və vaxt sərf etməklə ixrac potensialının həyata keçirən sahibkarlara dəstək xidmətini, məlumat mübadiləsi aparmaq imkanı verir. "Bir pəncərə" İxraca Dəstək Mərkəzi aşağıdakı sertifikatların verilməsini təmin edir:

- Baytarlıq sertifikatı: ixrac edilən məhsullara və xammala baytarlıq sertifikatının verilməsi;
- Keyfiyyət sertifikatı: İxrac edilən yeyinti məhsullarına keyfiyyət sertifikatının verilməsi;
- Bitkiçilik ixracı: Bitki və bitkiçilik ixracına verilən sertifikat;
- Mənşə sertifikatı: İstehsalçı ölkəni təsdiq edən mənşə sertifikatı;
- İcazə sertifikatı: Nəsli kəsilməkdə olan flora və fauna ixracı zamanı icazə sertifikatı verilməsi (http://www.e-qanun.az/framework/34254, 2021).

# II FƏSİL. AZƏRBAYCANDA SƏNAYE BÖLMƏSİNDƏ İXRAC İMKANLARINDAN İSTİFADƏNİN CARİ VƏZİYYƏTİ VƏ ONUN MÜQAYİSƏLİ ŞƏKİLDƏ QİYMƏTLƏNDİRİLMƏSİ VƏ MƏHSULLARIN ADININI MÜƏYYƏN EDİLMƏSİ YOLLARI

## 2.1. Qeyri-neft sənayesində ixrac potensialının artırılması yolları

Qloballaşan dövrdə texnologiyalar həyatın bir parçasına çevrilmişdir. Artıq Rəqəmsal İnqilab həyatımızı əhatə edir. Bu səbəbdən bizdə dünyada baş verən dəyişikliklərə uyğunlaşmalı, rəqabət qabiliyyətli əmək bazarını formalaşdırmalıyıq. Bu rəqabət qabiliyyətlik səviyyəsi həmdə iqtisadiyyatın göstəricisidir. Alimlərin düşüncəsinə görə gələcək dövrlərdə uğurlu olan ölkələr, dünyada baş verən qloballaşmaya daha tez uyğunlaşan və rəqabət edə bilmə qabiliyyətini yüksəldən ölkələr olacaqdır. Nobel mükafatçısı V.Leontyev "Leontyev effekti" əsərində bildirmişdir ki, bazar iqtisadiyyatlı ölkələrdə xammal və hazır olmayan məhsul idxal edilməli, əməktutumlu hazır məhsullar ixrac edilməlidir (Şəkərəliyev A. Ş., 2011).

Müasir bazar iqtisadiyyatı əsasən, yerli xammal və resurslardan daha səmərəli istifadə edərək istehsal sahələrinin yaradılması, ixrac potensialının yüksəldilməsi və ixrac qabiliyyəti yüksək olan sənaye məhsullarının istehsalını artıraraq iqtisadiyyatın inkişafına əsaslanır. Azərbaycanda qeyri-neft sənayesi dahada inkişaf etmişdir. Qeyri-neft sənayesinin inkişafının dahada sürətlənməsi devalvasiyadan sonrakı dövrdə olmuşdur. Nəzərə almaq lazımdır ki, ölkəmiz 1994-cü ildən bəri neft və qaz ixracı üzrə ixtisaslaşmışdır və buda öz növbəsində neft-qaz sənaye sektorlarının inkişafına daha çox diqqət ayırılmasına səbəb olmuşdur.

Ölkəmiz iqtisadiyyatın neftdən asılılığını aradan qaldırmaq üçün qeyri-neft sənayesinin inkişafına xüsusi diqqət ayırmışdır. Bu zaman çərçivəsində bir çox sənayeləşmə tədbirləri həyata keçirilmişdir. Sənayeləşmə tədbirlərinə yeni

müəssisələrin yaradılması, sənaye sahələrinin artırılması, inkişaf etdirilməsi aiddir. Ölkəmizdə maşınqayırma, cihazqayırma və s. kimi yeni qeyri-neft sənaye sektorları yaradılaraq, idxal-ixrac müqavilələri imzalanır və ixrac potensialının artırılmasına şərait yaradır.

Bir ölkədə sənaye inkişafı əsas hədəf kimi müəyyən edilirsə bu həmin ölkənin istehsal etdiyi məhsullar ilə dünya bazarına çıxmaq və rəqabət qabiliyyətli olaraq məhsul ixracını artırmaqdır. Lakin nəzərə almaq lazımdır ki, ixrac üçün birinci tələb olmalıdır. Tələbat olmayan məhsul ixracı uğursuz nəticələnəcəkdir. İxrac potensialını təhlil edərkən aşağıdakı amillərər xüsusi diqqət edilməlidir:

1. Tələbat;
2. Dünya bazar standartı;
3. Keyfiyyət amili;
4. Qiymət müqayisəsi.

Əgər ölkənin istehsal etdiyi məhsul dünya bazarındakı məhsulun keyfiyyət və kəmiyyətindən aşağıdırsa, deməli həmin ölkədə resurs və xammaldan düzgün istifadə edilmir və ixrac potensialı düzgün təhlil edilmir (Məhərrəmov A.M., Qənbərov F.Ə., və Güləliyev M.G., 2015).

İxrac potensialına təsir edən amillərdən ən önəmlisi əmək resurslarıdır. Əmək resurslarına - satışı həyata keçirən kadr, istehsal zamanı çalışan ixtisaslı kadr, elmi-ixtisaslı kadrlar aiddir. İxrac potensialı dedikdə istifadə edilən və istifadə edilməmiş təbii sərvətlər nəzərdə tutulur. Ölkəmizin bol xammal ve resursa sahib olması, resursların əlçatanlığı qeyri-neft sənayesinin inkişafını sürətləndirir. İxrac potensialının yüksəldilməsində əmək ehtiyatlarına xüsusi diqqət edilməlidir. Əmək ehtiyatlarının elmi-texniki tərəqqinin tələblərinə uyğun olması, ixtisaslı kadrlardan ibarət olması, əmək ehtiyatlarından düzgün istifadə edərək ixrac potensialının artırılmasına nail olmaq mümkündür. Bu səbəbdən işçilərin peşə ixtisas səviyyəsinin yüksəldilməsi, biliklərinin təkmilləşdirilməsi, işçi qüvvəsindən düzgün istifadə və s. amillər nəzərə alınmalıdır (Aslanlı K., və başqaları 2013).

Məlumdur ki, İEOÖ daha çox xammal ixracına üstünlük verir. Buna səbəb həmin ölkələrin zəif inkişaf etməsi, texniki və texnoloji yeniliklərdən geri

qalmasıdır. Bu səbəbdən zəif inkişaf etmiş ölkələrdə emal sənayesi inkişaf etmir. Lakin İEÖ-də daha çox emal sənayesi inkişaf etmişdir. Çünki inkişaf etmiş ölkələr xammal istehsalı əvəzinə xammal əvəzedicilərdən istifadə edərək və ya xammalı idxal edərək, texnologiyaların tətbiqi ilə istehsal edir və ixrac potensialını artırır. Son dövrlərə nəzər salsaq deyə bilərik ki, inkişaf etmiş ölkələr daha çox texnologiya tutumlu məhsul istehsal edərək emal sənayesinin inkişafına və elmtutumlu məhsul istehsalının artması, ixrac potensialının yüksəlməsi sürətlənmişdir (Aslanlı K. və başqaları 2013).

İxrac potensialını təhlil edilərkən diqqət edilməli olan xüsusiyyətlərdən biridə "açıq iqtisadiyyat" səviyyəsidir. Ölkələrin inkişafını təhlil edərkən idxal məhdudiyyəti yüksək olan ölkələrdə iqtisadi inkişaf zəif, açıq iqtisadiyyat olan ölkələrdə isə inkişaf daha yüksək olmuşdur. Asiya-Sakit Okean İqtisadi birliyinin 18 üzv və dövləti regionlarda investisiya və ticarətin azad və açıq rejimə keçməsi haqqında 1994-cü ilin noyabr ayında uzunmüddətli tapşırıq qarşıya qoydular. İEÖ 2010-cu ilə qədər, İEOÖ isə 2020-ci ilə qədər bu tapşırığı icra edəcəkdilər. Avstraliya, Meksika, Sinqapur, və s. ölkələr bu razılaşmaya qoşuldular. Açıqlıq səviyyəsi=ÜDM tərkibində xarici tiacət dövriyyəsi>25% olarsa həmin ölkədə açıq iqtisadiyyatdır. Azərbaycanda açıq iqtisadiyyat mövcuddur (https://referat.ilkaddimlar.com/r/kurs-isleri/iqtisadiyyat/info-367.html, 2021).

## 2.2. İqtisadiyyatın inkişaf mərhələsində ixrac potensialı və rəqabət qabiliyyətinin formalaşması

Rəqabət- iki və daha çox istirakçının, əvvəlcədən müəyyənləşdirilmiş məhdud yer uğrunda mübarizə aparmasıdır. Rəqabət qabiliyyətlik - həm keyfiyyətcə, həmdə qiymətcə rəqiblərə nisbətən üstün məhsul istehsal edə bilmək qabiliyyətidir. Beynəlxalq bazarlarda üstün mövqeyə malik olmaq, rəqabətdə öndə olmaq üçün ixrac üçün, məhsul istehsal edən sənayelər həmişə daha keyfiyyətli məhsul istehsalına səy göstərməli və daim yeniliklər tətbiq etməlidirlər. Burda yeniliklər tətbiq edən müəssisələr dediyimiz zaman xidmətin tərtib olunmasından, satılmasına kimi xidmətin tərtib olunmasını araşdıran müəssisələrdir (M.Porter,1995).

Rəqabət qabiliyyətliyi bazarlarda rəqiblərdən öncə məhsul istehsalı, satışı və satışdan sonrakı xidmətə görə rəqiblərin savaşı deyə bilərik, buda rəqib müəssisələrin öz çatışmamazlıqlarını aradan qaldırmağa, daim yenilik tətbiq etməyə və s. kimi xidmətləri zəruri edir (İsmayılov B.V., 2018).

Qloballaşma dövründə qeyri-neft sənayesinin rəqabət qabiliyyətinin artırılması, iqtisadi inkişaf tempinə nail olmaq üçün bu sahədə yeni modellər işlənib hazırlanmalı, yeni sahələr yaradılması, iqtisadi sahələrin şaxələndirilməsi əsas prioritet olmalıdır. Həmçinin xammal və resurlardan asılılığı azaltmaq, qeyri-neft sənayesinin inkişafına və ixrac potensialının artırılmasına təkan verir ki, buda dövlət tənzimləmələri vasitəsi ilə həyata keçirilə bilinəcəkdir.

İxrac potensialının yüksəldilməsində aşağıdakı amillər rol oynayır:

1. **Yerli**

Ölkəmizdə mövcud olan xammal, resurs, iqlim kimi amillər istehsala təsir edir. İstehsal zamanı yerli resurs və xammaldan istifadə məhsulun maya dəyərinin nisbətən aşağı olmasına və bazarda rəqiblərə nisbətən qiymətin aşağı təklif edilməsinə səbəb olacaqdır ki, buda ixracın artmasına səbəb olacaqdır.

2. **Regional**

Regional amil olaraq Azərbaycanın yerləşdiyi regional mövqeyi qeyd edə bilərik. Belə ki, Azərbaycan ilə Ermənistan arasında iqtisadi əlaqələr olmadığından, ölkəmizdə, Ermənistan ilə müttəfiqlik edən ölkələrlə qurulan əlaqələr ixrac potensialı üçün rəqabət qabiliyyətli sayılmır.

3. **Beynəlxalq**

Beynəlxalq amillər dedikdə:

1. Ölkələrin daxili quruluşu oxşardır;
2. Dünya bazarlarında inhsarçı rəqabət yüksəkdir;
3. İqtisadiyyatın qloballaşma səviyyəsi.

Yuxarıdakıları nəzərə alaraq xarici iqtisadi siyasəti formalaşdıran əlaqələr araşdırıla bilər (İsmayılov G.İ., 2006).

Müasir dövrdə elm və texnologiya sürətlə inkişaf edir. Texnoloji yenilikləri istehsala tətbiq edən müəssisələr üstün rəqabət qabiliyyəti əldə edir və ixrac

potensialını artırır. Texnoloji yeniliklər müxtəlif ölkələrin istehsal prosesində fərqlər meydana gəlməsinə səbəb olur. Bu fərq sayəsində texnoloji yenilik istifadə edən ölkələr üstünlük qazanır. Lakin texnoloji yenilik istifadəsi zamanı yaranan üstünlük müvəqqəti xarakter daşıyır. Çünki qloballaşan dövrdə digər ölkələrdə yeni texnologiyalardan istifadəyə başlayacaqdır.

İxrac potensialının artırılması üçün çevik və effektiv yanaşmalardan biridə iqtisadi islahatdır. Ölkə əhalisin gündəlik tələbatı, məşğulluq səviyyəsinin yüksəldilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün qeyri-neft sənayesinə aid xüsusi istehsal sahələri, aqroparkların yaradılması məqsədə uyğundur. Aqroparklar yaradılarkən beynəlxalq aqropark təcrübəsi öyrənilməli, bu modelin mənfi və müsbət xüsusiyyətlərinin araşdırılması yeni açılacaq aqroparkların daha effektiv işləməsinə və aqroparkların inkişafına dəstək olacaqdır. Ölkəmizdə aqropark modelinə misal olaraq sənaye və kənd təsərrüfatı arasında əlaqə yaradılmasını qeyd edə bilərik. Bu əlaqə məşğulluğun artmasına, gəlirin yüksəlməsinə, ərzaq təminatının yaradılmasına və ixrac sahələrinin artmasına səbəb olacaqdır.

Ölkəmizdə ixrac olunan qeyri-neft sənaye sahələri istiqamətində aparılan tədqiqatda, hal-hazırda ixrac olunan məhsullardan əlavə istehsal olunan məhsulların xarici ticarət dövriyyəsindəki göstəriciləridə təhlil edilməlidir.

**Cədvəl 2: Azərbaycanda 2019-cu il xarici ticarət dövriyyəsi (min dollar ilə)**

| Ölkə qrupları | Xarici ticarət dövriyyəsi | İdxal | İxrac | Ticarət balansı |
|---|---|---|---|---|
| Cəmi | 33 302 818,2 | 13 667 237,8 | 19 635 580,4 | 5 968 342,8 |
| MDB ölkələri | 4 610 980,6 | 3 432 543,3 | 1 178 437,28 | -2 254 106 |
| Avropa İttifaqı | 12 929 959,89 | 2 430 718,99 | 10 499 240,9 | 8 068 521,9 |
| Dünyanın digər ölkələri | 15 761 877,77 | 7 803 975,54 | 7 957 902,23 | 153 926,69 |

**Mənbə:**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.azstat.org/portal/search/search.do)/ Statistik informasiya xidməti (ASİS)/ Ölkələrdən idxal/ Ölkələrdən ixrac/ticarət dövriyyəsi

2020-ci ildə isə xarici ticarət dövriyyəsi 24 471 287,9 min USD olmuşdur. 2019-cu il ilə müqayisə zamanı 26,5 faiz azalma olmuşdur. 2020-ci ildə 13 740 567,63 min USD ixrac, 10 730 720,22 min USD isə idxal edilərək 3 009 847,4 min USD müsbət ticarət balansı yaranmışdır. (https://apa.az/az/xeber/

maliyye xeberleri/Azrbaycanin-xarici-ticart-dovriyysi-otn-il-26percent-dn-cox-azalib-624575, 2021). İxrac edilən və idxal edilən məhsullar haqqında məlumatlar daha geniş olaraq əlavə 5-də qeyd edilmişdir.

2020-ci ilin rəsmi statistik məlumatına əsasən Azərbaycan Respublikasında 2020-ci ildə 111 ölkəyə məhsul ixracı, 174 ölkədən isə məhsul idxalı edərək ümumilikdə 183 ölkə ilə tərəfdaşlıq etmişdir.

"2020-ci il ərzində ümumi ixrac 13,7 milyard dollar olmuşdur və onun 1,9 milyard dolları qeyri-neft sektoru məhsulu ixrac edilmişdir. Qeyri-neft sektoru üzrə ixrac 2019-cu il ilə müqayisədə 102 milyon ABŞ dolları və ya 5,2 faiz azalıb" (Azərbacan Respublikasının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, "İxrac icmalı", yanvar 2021, s. 3).

**Cədvəl 3: 2020-ci ilin qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi**

| Ölkələrin adı | İxrac dəyəri(milyon ABŞ dolları) |
|---|---|
| Rusiya | 6910,0 |
| Türkiyə | 377,8 |
| İsveçrə | 224,8 |
| Gürcüstan | 127,6 |
| Çin | 44,5 |

**Mənbə:** Azərbacan Respublikasının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, "İxrac icmalı", yanvar 2021

Ölkədə ixrac potensialının araşdırılmasında "Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu" da fəaliyyət göstərir. 2020-ci il ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında "qızıl - 205,6 milyon ABŞ dolları birinci, tomat (pomidor) -201,4 milyon ABŞ dolları ikinci və pambıq mahlıcı - 131,9 milyon ABŞ dolları üçüncü olub" (İxrac icmalı yanvar 2021: s.3).

**Cədvəl 4: Azərbaycanda 2020-ci ildə ixrac edilən məhsulların həcmi (milyon ABŞ dolları)**

| | |
|---|---|
| Meyvə-tərəvəz | 607,7 |
| Pambıq lifi | 133,2 |
| Alüminium və ondan hazırlanan məmulatla | 113,4 |
| Qara metallar və onlardan hazırlanan məmulatlar | 52,4 |
| Kimya sənayesi məhsulları | 85,2 |
| Pambıq ipliyi | 19 |
| Spirtli və spirtsiz içkilər | 12 |
| Şəkər ixracı | 26,9 |
| Bitki və heyvan mənşəli piylər və yağlar | 24,7 |

| | |
|---|---|
| Çay ixracı | 9,5 |

**Mənbə:** Azərbacan Respublikasının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, “İxrac icmalı”, yanvar 2021

“2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci il ərzində meyvə-tərəvəz ixracı 0,3 faiz, bitki və heyvan mənşəli piylər və yağlar ixracı 3,4 faiz, şəkər ixracı 0,1, pambıq lifi ixracı 7,5 faiz artıb”( “İxrac icmalı”, yanvar 2021: s.4). “2020-ci il üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk 5 şirkət aşağıdakılardır: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin nümayəndəliyi, “Socar Polymer” MMC, "Land Lojistic" MMC, "MKT İstehsalat Kommersiya" MMC” (“İxrac icmalı”, yanvar 2021: s. 10).

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir.

**Şəkil 1: 2020-ci ildə “Azərkosmos” ASC-nin fəaliyyəti**




**Mənbə**: Azərbacan Respublikasının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, “İxrac icmalı”, yanvar 2021

2020-ci ildə Azexport.az portalına 610,8 milyon ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olub. 2019-cu illə müqayisə etdiyimiz zaman 2,5 faiz ixrac sifarişində artım olmuşdur. Azexport saytına 2017-ci ildən 2 milyard 195,6 mln USD sifariş daxil olmuşdur ("İxrac icmalı", yanvar 2021).

Ölkəmizdə bir pəncərə ixraca dəstək mərkəzində həyata keçirilən ixracda 1,9 faiz hava nəqliyyatı, 68,6 faiz avtomobil nəqliyyatı, 23,2 faiz dəmiryolu nəqliyyatı, 2,7 faizi isə digər nəqliyyat vasitələri ilə həyata keçirilmişdir. ("İxrac icmalı", yanvar 2021).

Ölkəmizdə qeyri-neft sənayesinin inkişafına, ixrac potensialının və rəqabət qabiliyyətin yüksəldilməsi, idxalın azaldılaraq ölkədə istehsalının təşkil edilməsi, məşğulluğun təmin edilməsi, investisiya cəlb edilməsi kimi məsələlər təşkil edir. Ölkədə yaradılan sənaye parkları, sənaye texnologiya parkları, sənaye zonaları qeyri-neft sənayesinin inkişafında, sənayenin şaxələndirilməsində, texnoloji yeniliklərin cəlb edilməsi ilə inkişafı təmin etmək üçün dövlətin həyata keçirdiyi siyasətdir. Ölkəmizdə qeyri-neft sənaye sahələrinin inkişafı üçün bir çox dəstək tədbirləri, bir pəncərə xidməti həyata keçirilir. Burda əsas hədəf sahibkarlar üçün sağlam rəqabət şəaritinin təşkil edilməsi, qeyri-neft sənayesinin inkişafı, istehsal edilən məhsul çeşidin genişləndirilməsidir. Bu layihələrdə əsas prioritet məhsulların rəqabət qabiliyyətlik səviyyəsidir.

## 2.3. Müasir dövürdə Azərbaycanının sənaye məhsullarının ixrac potensialı və onun qiymətləndirilməsi

Ölkəmizdə və dünyada baş verən böhran nəticəsində neftin qiymətinin azalması, xarici əməkdaşların ölkələrində yaranmış böhran qeyri-neft sektoru sənayesində azalma, idxalın ixracdan çox olması, bank sektorundakı zəifləmələr Azərbaycanda qeyri-neft sənayesinin inkişafına daha çox ehtiyac yaratmışdır. Bu səbəbdən büdcəyə və iqtisadiyyata daha çox fayda verməsi məqsədi ilə ixracın artırılması, ticarətdə rəqiblərə nisbətən aşağı ixrac potensialına sahib olan istehsalı, daha yüksək ixrac potensialı olan sahələrlə əvəzlənməsi, az əməktutumlu sahəyə nisbətən yüksək əməktutumlu sahələrin artırılması, yüksək texnoloji tututmlu

sahələrin artırılması, az gəlirli sahələrin, yüksək gəlirli sektorların yaradılması iqtisadiyyatın inkişafına dəstək oldu. Ölkəmizin kifayət qədər resurs ehtiyatlarına sahib olması emal sənayesinin, kimya sənayesinin inkişafına zəmin yaradan önəmli faktorlardandır. Bundan başqa ölkənin iqlim və torpaq resursu kənd təsərrüfatı, turizim sənayesinin inkişafına, coğrafi mövqe isə ixracın inkişafına səbəb olur.

Cədvəl 5-i təhlil etdiyimiz zaman ÜDM neft və qeyri neft sektorunun müqayisə etmək olar. 2018-ci ildə statistika 2017-ci il ilə müqayisədə 1,4 % artaraq 79 797 mln manat olmuşdur. 2018-ci ildə qeyri-neft sektorunda 1,8 %,neft sektorunda isə 0,6 % artım olmuşdur. 2019 cu ildə ÜDM 2018-ci il ilə müqayisədə 2,2% artmış və 81681,0 mln manat olmuşdur. 2019-cu ildə qeyri-neft sektorunda 3,5%, neft-qaz sektoru 0,4% artmışdır.

**Cədvəl 5: İqtisadiyyatın neft və qeyri-neft bölmələrində ümumi daxili məhsul istehsalı (dəyər milyon manat)**

| İllər | Neft sektoru | Qeyri-neft sektoru | Vergi | ÜDM |
|---|---|---|---|---|
| 2016 | 19 552,6 | 35 951,1 | 4 921,5 | 60 425,2 |
| 2017 | 25 005,4 | 40 328,0 | 5 004,4 | 70 337,8 |
| 2018 | 32 231,7 | 41 662,0 | 6 198,3 | 80 092,0 |
| 2019 | 30 051,9 | 44 481,8 | 7 362,5 | 81 896,2 |
| 2020 | 20 577,6 | 44 862,1 | 6 992,5 | 72 432,2 |

**Mənbə**: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az /source /system nat_accounts/)/ Ümumi daxili məhsul illik/ İqtisadiyyatın neft və qeyri-neft bölməsində ümumi daxili məhsul istehsalı

Ümumilikdə 2020-ci ildə qeyri-neft sektorunun 28,9 faizi qeyri-neft sənayesinin payına düşmüşdür. Şəkil 2-ni təhlil etdiyimiz zaman qeyri-neft sənayesində 35,6% paya qida məhsulları və içki istehsalı, 6,4% kimya sənayesi, 6,2% tikinti sənayesi 18,3% digər sahələr aiddir. 2020-ci ildə 2019-cu il ilə müqayisədə istehsalda artım olmuşdur. Toxuculuq sənayesində 7,4 faiz, geyim istehsalında 32,7 faiz,metallurgiya sənayesində 11,9 faiz, kimya sənayesində 20,5 faiz artım olmuşdur (ARDSK, 2021).

Cədvəl 6-da Azərbaycanda ixrac əməliyyatları zamanı nəqliyyat bölgüsü göstərilmişdir. Cədvəl 6-da göründüyü kimi 2019-cu ildə ən çox istifadə edilən nəqliyyat vasitəsi dəmiryolu nəqliyyatı olmuşdur. Lakin dəyər olaraq avtomobil nəqliyyatı daha yüksək göstəriciyə sahib olmuşdur. Nəqliyyat vasitələrindən

istifadənin düzgün seçilməsi ixrac və idxal edilən sənaye məhsulları üçün böyük əhəmiyyət kəsb edir. Seçim zamanı daşıma xərci, çatdırılma zamanı əsas meyardır.

**Cədvəl 6: 2019-cu ildə ixrac həyata keçirən nəqliyyat vasitələrinin bölgüsü**

| Daşınma vasitələri | Netto çəki(ton) | Statistik Dəyər (min ABŞ dolları) |
|---|---|---|
| Dəniz nəqliyyatı vasitələri | 336 247,26 | 155 523,98 |
| Dəmiryolu nəqliyyatı vasitələri | 2 317 161,07 | 709 802,29 |
| Avtomobil nəqliyyatı vasitələri | 1 381 446,83 | 1 208 036,18 |
| Hava nəqliyyatı vasitələri | 68 834,83 | 281 132,40 |
| Poçt göndərişi | 0,12 | 16,96 |
| Stasionar nəqletmə vasitələri | 40 361 218,88 | 17 280 290,92 |
| Özü hərəkət edən vasitələr | 82,10 | 777,67 |
| Yekun | 44 464 991,09 | 19 635 580,41 |

**Mənbə:** Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikası (https://customs.gov.az/modules/pdf/pdffolder/84/FILE_4A9D8C-5B4D1A-34831F-265C31-60B8D6-94CBDD.pdf )/ İxrac və idxalda keçirilən yüklərin daşınma vasitələri üzrə miqdarı (netto çəki ilə) və dəyər

**Şəkil 2: 2019-cu il Sənaye istehsalının sahə strukturu, ümumi yekuna nisbətən faizlə**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi,/ (https://www.stat.gov.az/news/news.php?topic=20&page=5)/ Mətbu məlumatlar/ 2019-cu il sənaye istehsalı haqqında

Ölkədə investisiyaların qoyulması iqtisadiyyata təsir edir. Çünki investisiya iqtisadi artım tempinin əsas amillərindəndir. İnvestisiya daha çox yatırılan sahədə iqtisadi artımda yüksəkdir. Dünyadakı vəziyyətlə əlaqədar neftin ucuzlaşması, Azərbaycanın neft amilindən asılılığı iqtisadiyyata təsir edir və buda qeyri-neft

sektorunun inkişafına daha çox diqqət artmasına səbəb olur. Buna görədə uzun illərdir investisiyaların böyük bir hissəsi qeyri-neft sektoruna yönləndirilib. Cədvəl 7-də illər üzrə investisiyalar qeyd edilmişdir. Cədvəldən göründüyü kimi 2019-cu ildə neft sektorun investisiya azalmış, lakin qeyri-neft sektoruna artmışdır.

**Cədvəl 7: 2019-cu ildə kapitala investisiya qoyuluşlarının strukturu, min manatla**

| İllər | Neft sektoru | Qeyri neft sektoru |
|---|---|---|
| 2016 | 8648028,6 | 7124797,2 |
| 2017 | 8483950,6 | 8946388,9 |
| 2018 | 5995208,6 | 11249654,3 |
| 2019 | 5848882,9 | 12690593,6 |

**Mənbə**: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/source/industry)/ Sənayedə əsas kapitala yönəldilən investisiyalar (faktiki qiymətlərlə), milyon manat

Qeyri-neft sənayesinində inkişafında birbaşa və xarici investisiyalar cəlb edilir. Bu investisiyaların cəlb edilməsi ixrac məhsullarının inkişafınıda stimullaşdırır. Qeyri-neft sənayesinin davamlı inkişafı üçün xarici investisiyaların cəlb edilməsi artırılması, müəssisələrin müasir texnologiyalar ilə təmin edilməsi, məhsulların keyfiyyətinin beynəlxalq standartlara cavab verməsi həqiqətən ixrac potensialının artırılmasına səbəb olmuşdur. Cədvəl 8-də sənaye məhsullarının dəyəri göstərilmişdir.

**Cədvəl 8: Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, mln manat**

| | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|
| Bütün sənaye | 32300,2 | 39892,5 | 47677,0 | 46999,2 |
| Mədənçıxarma sənayesi | 21191,9 | 28033,5 | 34931,5 | 32857,5 |
| Qeyri-neft emal sənayesi | 8899,5 | 9723,5 | 10465,4 | 11793,8 |
| Yeyinti sənayesi | 3230,1 | 3302,4 | 3401,9 | 4266,8 |
| Yüngül sənaye | 2845,5 | 3057,7 | 3454,2 | 3618,8 |
| Kimya sənayesi | 374,2 | 513,9 | 528,0 | 599,6 |
| Tikinti sənayesi | 471,9 | 674,0 | 731,5 | 746,3 |
| Metallurgiya sənayesi | 287,5 | 498,6 | 624,9 | 575,8 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 1937,8 | 1839,8 | 1961,2 | 2011,6 |
| Su təchizatı, kanalizasiya və tullantıların təmizlənməsi, emalı | 271,0 | 295,7 | 318,9 | 336,3 |
| Digər | 1690,3 | 1676,9 | 1724,9 | 1986,4 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/source/industry/)/ Sənaye istehsalı/ Sənaye məhsullarının işlərin, xidmətlərin dəyəri

İqtisadiyyatda ixrac potensialının artırılması üçün investorlarda düzgün siyasət yürütməlidir. Cədvəl 9-da qeyri-neft sənayesinə əsas kapitala yönləndirilmiş investisiyalar qeyd edilmişdir. Cədvəldəndə göründüyü kimi investorlar üçün cəlbedici sahələr kimya sənayesi, qida sənayesi və yüngül sənaye aparıcı rola malikdir. Bu sektorların inkişafında dövlət dəstəklərinin roluda böyükdür. Ölkədə yaradılan parkları, məhəllələri misal göstərə bilərik.

Bildirmək lazımdır ki, investorlar işlədiyi ölkədəki şəraiti nəzərə alırlar. İnvestorlar ölkədəki investisiya mühiti, investisiya yatıracağı sahədəki fəaliyyəti nəzərə alırlar. İnvestisiya ölkədə qeyri-neft sənayesinin inkişaf tempinə təsir edici qüvvədir. İnvestisiyanın az cəlb edilməsi sektorun inkişafına mənfi təsir edir ki, buda ixrac potensialını aşağı salır.

**Cədvəl 9: Qeyri-neft sənayesində əsas kapitala yönəldilən investisiyalar (faktiki qiymətlərlə), milyon manatla**

| **Sahələr** | **İllər 2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|
| Qeyri-neft sənayesi | 9949,8 | 10610,1 | 8497,2 | 9258 |
| Xarici investisiya | 7350,9 | 6989,5 | 3993,1 | 4411,3 |
| Daxili investisiya | 2598,9 | 3620,6 | 4504,1 | 4846,7 |
| Mədənçıxarma sənayesi | 8576,7 | 8428,9 | 5702,3 | 5670,5 |
| Yeyinti sənayesi | 68,5 | 152,8 | 296,6 | 196,8 |
| Yüngül sənaye | 117,7 | 125,7 | 383,2 | 247,6 |
| Kimya sənayesi | 35,6 | 118,1 | 267,5 | 1602,4 |
| Tikinti materiallarının istehsalı sənayesi | 27,6 | 33,3 | 138,4 | 100,4 |
| Metallurgiya sənayesi | 1,3 | 0,9 | 4,3 | 16,1 |
| Maşınqayırma sənayesi | 11,3 | 4,5 | 0,8 | 8,2 |
| Maşın və avadanlıqların başqa hazır metal məlumatlarının istehsalı | 95,6 | 99,3 | 83,1 | 44,6 |
| Emal sənayesi | 424,3 | 652,6 | 1431,9 | 2466,4 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 370,2 | 870,5 | 602,9 | 490,0 |
| Su təchizatı, kanalizasiya və tullantıların təmizlənməsi, emalı | 578,6 | 658,1 | 760,1 | 631,1 |
| Digər sənaye sahələri | 95 | 145,4 | 245,7 | 200,3 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/source/industry/)/ Azərbaycanın sənayesi/ Sənayedə əsas kapitala yönəldilən investisiyalar

Ölkədə qeyri-neft sənayesinin vəziyyətini müəyyən etmək üçün, hər bir sənaye sahəsini ayrı ayrı təhlil etmək lazımdır.

**Yeyinti sənayesi:** Yeyinti sənayesi qida məhsullarının, içki və tütün məmulatlarının istehsalını, emalını özündə birləşdirən müəssisələrdən ibarətdir. Burda məhsulların ilkin emalından, təkrar emalına qədər olan sahələri özündə birləşdirən sənayedir.

Yeyinti sənayesinin fəaliyyəti nəticəsində ölkə ərzaq təminatı, ərzaq təhlükəsizliyi, əhalinin tələbatının yerli istehsal hesabına ödənilməsini təmin edir. Ölkəmizdə 2020-ci ilin məlumatına əsasən 35,6 faiz yeyinti və yüngül sənaye sahələridir. Yeyinti və yüngül sənayenin qeyri-neft sənaye sahəsində belə yüksək paya sahib olması ölkədə ən perspektivli sahələr olduğunu bildirir. Yeyinti sənayesinin inkişafında Prezidentin sərəncamları xüsusi rola malikdir. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsində, sənayenin inkişafında mühüm əhəhmiyyət kəsb etmişdir. Prezidentin bu addımı əhalinin keyfiyyətli ərzaq məhsulu ilə təmin edilməsi, istehsalın standartlara cavab verməsinə nail olmaq əsas məqsəddir.

İndiki dövrdə ölkəmizdə standartlara cavab verən, ixrac fəaliyyəti ilə məşğul olan sənaye müəssisələri fəaliyyət göstərir. Qida sənayesinin ən böyük istehsalçısı və ixracatçısı 1991-ci ildən fəaliyyət göstərən "Azərsun Holdinq"dir. "Azərsun Holdinq"in yüksək ixrac potensiallı fabrik və zavodlara sahib olması inkişafında əsas rola malikdir. Holdinqin fabrik və zavodlarına misal olaraq Sun Tea, Bakı yağ fabriki, Zaqatala Fındıq fabriki və s. bildirmək olar.

Ölkədə fəaliyyət göstərən iri yeyinti sənayesi müəssisələrinən biridə "Gilan Holdinq" dir. Bu şirkətə "Qəbələ konserv zavodu", "Jalə"şirələri zavodunu, "Gilan alko" şərab zavodunu və s. misal göstərmək olar. Bundan başqa ölkəmizdə fəaliyyət göstərən "Bismak" MMC, "Sağlam Qida" müəssisələridə ölkədəki fəaliyyət və əhatə dairəsinə görə öndə gedən müəssisələrdəndir. Ölkədə çörək bişirmə müəssisələridə qəsəbələrdə, kəndlərdə də daxili tələbatı ödəmək üçün fəaliyyət göstərir ( https://www.azerbaijans.com/content_719_az.html, 2021).

Dövlət Statistika Komitəsinin 01.01.2021-ci il məlumatına əsasən ölkədə qida məhsullarının istehsalı 449 müəssisə içki istehsalı 126 müəssisə və tütün istehsalı üzrə 11 müəssisə fəaliyyət göstərir. Bu müəssisələrdən 10-u dövlət, 576-sı qeyri-dövlət statusludur. Ölkədə bu sektorun inkişafının nəticəsidir ki ölkə tələbatının 80%-i daxili istehsal hesabına təmin edilir (ARDSK, 2021).

Tütün məlumatlarının istehsalında 4 müəssisə sayında və investisiya həcmində 34,3 mln manat artım olmuşdur. Cədvəl 10-da müəssisələrin sayı, istehsal həcmi göstərilmişdir.

**Cədvəl 10: Yeyinti sənayesi müəssisələrinin iqtisadi göstəriciləri**

| **A- Qida məhsullarının istehsalı**<br>**B- İçki istehsalı**<br>**C- Tütün məmulatlarının istehsalı** | 2016 | 2017 | 2018 | 2019 | Bazis ilinə nisbətən artım tempi %-lə |
|---|---|---|---|---|---|
| 1. Fəaliyyət göstərən müəssisələrin sayı<br>A1 | 391 | 361 | 393 | 449 | 114,8 |
| B1 | 119 | 110 | 120 | 126 | 105,9 |
| C1 | 7 | 9 | 10 | 11 | 157,1 |
| 2. Sənaye məhsulunun dəyəri ,(milyon manat)<br>A2 | 2964,7 | 2999,8 | 3050,8 | 3584,8 | 120,92 |
| B2 | 223,9 | 263,4 | 295 | 433,1 | 193,43 |
| C2 | 41,5 | 39,2 | 56,1 | 248,9 | 600 |
| 3.Sənaye məhsulunun fiziki həcm indeksi, əvvəlki ilə nisbətən, faizlə<br>A3 | 104,8 | 101 | 101,3 | 110,8 | - |
| B3 | 94,4 | 117,2 | 112,2 | 141,4 | - |
| C3 | 91,8 | 107,9 | 265,3 | 180,7 | - |
| 4. Ölkədə istehsal olunmuş sənaye məhsulunda sahənin payı, faizlə<br>A4 | 9,1 | 7,4 | 6,4 | 7,6 | 83,5 |
| B4 | 0,7 | 0,7 | 0,7 | 0,9 | 128,6 |
| C4 | 0,1 | 0,1 | 0,1 | 0,5 | 5 |
| 5. Əsas kapitala investisiyalar (milyon manat)<br>A5 | 63,6 | 125,5 | 196,6 | 140,4 | 220,7 |
| B5 | 4,1 | 26,9 | 39,3 | 21,3 | 519,5 |
| C5 | 0,8 | 0,4 | 60,7 | 35,1 | 4387,5 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/source/industry/)/ Azərbaycan sənayesi/ İqtisadi fəaliyyət növləri/ qida, içki və tütün istehsalı ilə məşğul olan müəssisələrin işinin əsas göstəriciləri

Cədvəldəndə göründüyü kimi inestisiya yatırımında 128,3 mln manat artım olmuşdur. İçki istehsalında 17,2 mln manat investisiyada artım olmuşdur.

**Yüngül sənaye**: Yüngül sənaye Azərbaycanın ən qədim və ənənəvi sənaye sahələrindən biridir. Yüngül sənaye müəssisəsi 20-ci əsrin əvvəllərində Bakıda ilk tikiş fabriki istifadəyə verilmişdir. Həmin dövrdə ipək istehsalı - 300 t, yun istehsalı- 4 mln t, pambıq mahlıcı istehsalı - 22 min t. təşkil etmişdir. Sxemdə yüngül sənayenin alt sahələri qeyd edilmişdir. Şəkil 3-ü təhlil etdiyimiz zaman ən böyük sahənin toxuculuq sahəsinin payına düşdüyünü görə bilərik. Toxuculuğun alt sənayesinə isə parça istehsalı, xalçaçılıq, süni və sintetik liflər aiddir. Ölkəmizin kifayət qədər resursa sahib olmasıda bu sənaye sahəsinin inkişafına təkan verir. İstehsalın xammal təminatı yerli resurs hesabına təmin edilir. Yüngül sənaye müəssisələrinə misal olaraq Mingəçevirdə toxuculuq kombinatı, Sumqayıtda xovlu iplik, üst trikotaj və tikiş fabrikləri, Gəncədə xalça kombinatı və tikiş fabriki, Bakıda ayaqqabı, tikiş, gön-qalanteriya fabrikləri, Ordubadda baramaaçan fabrik, Naxçıvanda alt trikotaj, tikiş və xalça fabrikləri, digər şəhərlərdə tikiş fabrikləriini misal göstərə bilərik.Yüngül sənaye sahəsinə aid əsas xüsusiyyətlərdən biridə işçilərin əsas hissəsini qadınların təşkil etməsidir. Ölkəmizdə yüngül sənayenin inkişafı əsas meyardır (https://www.azerbaijans.com/content_720_az.html, 2021).

Dövlət Statistika Komitəsinin 01.01.2020-ci il məlumatlarına əsasən yüngül sənaye sahəsində 475 müəssisə fəaliyyət göstərir. Müəssisələrin sayı 2016-cı illə müqayisədə 132 vahid artmışdır (ARDSK, 2021).

**Cədvəl 11: Azərbaycanın yüngül sənayesinin alt – sahələri üzrə fəaliyyət göstərən müəssisələrin sayı, (vahid)**

| **Alt sahələr** | | İLLƏR | | |
|---|---|---|---|---|
| | **2016** | **2017** | **2018** | **2019** |
| Toxuculuq sənayesi | 66 | 67 | 74 | 80 |
| Geyim istehsalı | 60 | 57 | 77 | 99 |
| Dəri və dəri məmulatlarının və ayaqqabıların istehsalı | 21 | 27 | 29 | 29 |
| Ağacdan məmulatların istehsalı | 34 | 38 | 45 | 55 |
| Kağız və karton məhsulların istehsalı | 22 | 20 | 28 | 40 |
| Mebellərin istehsalı | 140 | 153 | 150 | 172 |
| Cəmi | 343 | 362 | 403 | 475 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/source/industry/)/ Azərbaycan sənayesi/ İqtisadi fəaliyyət növləri/ Toxuculuq, Geyim, Dəri və dəri məmulatlarının və ayaqqabıların, Ağacdan məmulatların, Kağız və karton məhsulların, Mebellərin istehsalı ilə məşğul olan müəssisələrin işinin əsas göstəriciləri

Yüngül sənayenin inkişafında investorların roluda böyükdür. 2019-cu ildə 2018-ci illə müqayisədə 76,7 mln manat istehsal həcmində artım olmuşdur. Məhsul istehsalı həcmində isə 2019-cu ildə 56 mln manat toxuculuq sənayesində, 8,1 mln geyim istehsalında, 30,6 mln manat kağız və karton məhsulların istehsalında, 5,4 mln manat ağacdan məmulatların istehsalında 2018-ci illə müqayisədə artım olmuşdur. Mebellərin istehsalında 19,1 mln manat, dəri və dəri məmulatlarının və ayaqqabıların istehsalında 4,3 mln 2018-ci il ilə müqayisədə azalma olmuşdur. Nəticə olaraq 2019-cu ildə yüngül sənaye sahəsində istehsalın 43,43 faizini toxuculuq sənayesi, 15,9 faizini geyim istehsalı, 3,1 faizini dəri və dəri məmulatlarının və ayaqqabıların istehsalı, 9 faizini ağacdan hazırlanan məhsulların istehsalı, 15,31 faizini kağız və karton məhsulları, 13,22 faizini isə mebel məhsulları təşkil etmişdir. Cədvəl 12-də statistik göstəricilər qeyd edilmişdir. 2019-ci ildə yüngül sənaye sahəsinə 247,6 milyon manat investisiya cəlb edilmişdir.

**Cədvəl 12: Azərbaycanın yüngül sənayesinin alt – sahələri üzrə istehsal edilən məhsulun (işlərin, xidmətlərin) həcmi (milyon manat)**

| **Alt sahələr** | **İLLƏR** | | | |
|---|---|---|---|---|
| | **2016** | **2017** | **2018** | **2019** |
| Toxuculuq sənayesi | 96,7 | 182,3 | 248,3 | 304,3 |
| Geyim istehsalı | 86,7 | 104,0 | 103,6 | 111,7 |
| Dəri və dəri məmulatlarının və ayaqqabıların istehsalı | 13,6 | 18,0 | 26,1 | 21,8 |
| Ağacdan məmulatların istehsalı | 55 | 58,3 | 57,6 | 63 |
| Kağız və karton məhsulların istehsalı | 61,2 | 73,0 | 76,7 | 107,3 |
| Mebellərin istehsalı | 59,4 | 66,4 | 111,7 | 92,6 |
| Cəmi | 372,6 | 502 | 624 | 700,7 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/source/industry/)/ Azərbaycan sənayesi/ İqtisadi fəaliyyət növləri/ Toxuculuq, Geyim, Dəri və dəri məmulatlarının və ayaqqabıların, Ağacdan məmulatların, Kağız və karton məhsulların, Mebellərin istehsalı ilə məşğul olan müəssisələrin işinin əsas göstəriciləri

**Kimya sənayesi**. Ölkəmizdə inkişaf edən ənənəvi sənaye sahələrindən biridə kimya sənayesidir. Hazırda ölkəmizdə 250 adda müxtəlif kimya məhsulları istehsal

olunur. Kimya sənayesində yeni texniki-texnologiyanın tətbiq edilməsi, ekoloji təhlükəsizliyin qorunması, xammal resurslarından düzgün istifadə inkişafa təsir etmiş, ixrac potensiallı resurs istehsalı artmışdır. Kimya sənayesində istehsal olunmuş sənaye məhsulları digər sənaye sahələri üçün aralıq məhsulu rolunu oynayır. Kimya sənayesində istehsal olunan məhsullar: etilen, azot, kimyəvi məhlullar, lak-boya və s. məhsullar istehsal edilir. Cədvəl 8-i  və Cədvəl 9-u təhlil etdiyimiz zaman kimya sənayesinin istehsalı artmışdır. 2018-cı ildə 528 milyon manat məhsul istehsalı olubda bu rəqəm 2019-cu ildə 599,6 milyon manat olmuşdur. Nəticə etibari ilə 71,6 milyon manat istehsalda artım olmuşdur.

Kimya sənayesinin inkişafı üçün xarici investisiyalar cəlb edilməlidir. İnvestisiyaya yeni müəssiələrin tikilməsi üçün əsas məsələdir. Kimya sənayesində investisiyanın artırılması üçün investorlara güzəştlər edilməlidir. Çünki ölkəmiz kimya sənayesinin inkişafı üçün kifayət qədər potensiala sahibdir. 2019-2020-ci illərin statistikasına əsasən 1602,4 milyon manat investisiya cəlb edilmişdir. Kimya sənayesinin inkişafına təkan verən əlamətlərdən biridə İlham Əliyevin 21 dekabr 2011-ci il tarixidə imzaladığı sərəncama əsasən yaradılan Sumqayıt Kimya Sənaye Parkı olmuşdur. Burda tikinti sənayesi kimyası, tibb kimyası və s. məhsulların istehsalın əsasını təşkil edir.

**Metallurgiya sənayesi**. Metallurgiya sənayesinin ölkəmizdə inkişafı haqqında məlumatlar tədqiqatın birinci fəslində qeyd edilmişdir. Metallurgiya sənayesinin inkişafında İlham Əliyevin dəmir filizin hasilatından polad istehsalına, əlvan metalların saflaşdırılmasına qədər bütün mərhələləri əhatə etməsi haqında sərəncamı xüsusi rol oynamışdır. Burda əsas prioritet ölkənin daxili tələbatını təmin etmək, ixrac yönümlü sahəyə çevirməkdən ibarət idi.

Metallurgiya sənayesində istehsal isə 2018-ci illə müqayisədə 624,9  mln manatdan 575,8 mln manata enmişdir. Buna səbəb isə tələbatın yüksək olmasına baxmayaraq investisiya yatırılması səviyyəsi aşağıdır. Belə ki,investisiya həcmi 2019-cu ildə metallurgiya sənayesinə investisiya həcmi 16,1 mln manat təşkil edir. Ölkəmizdə 2019-cu ildə metallurgiya sənayesində 57 müəssisə fəaliyyət göstərir.

Müəssisələrdən 5-i dövlət, 52-si qeyri-dövlətə aid müəssisələrdir. Ölkəmizin ən iri metallurgiya sənaye zavodları: Baku Steel Company, Bakı polad tökmə.

Baku Steel Company metallurgiya zavodu 2001-ci ildən fəaliyyət göstərir. Azərbaycanda ilk metallurgiya zavodudur. Zavodun 2007-ci ildə illik istehsal gücü 386 456 ton, hazırda isə 1 mln ton olmuşdur. Bakı Polad Tökmə zavodunda illik istehsal gücü 100 min tona bərabərdir.

Əsas qara metallurgiya məhsulları aşağıdakılardır:

- ❖ Dəmir filizi;
- ❖ Polad tökmə;
- ❖ Armatur;
- ❖ Polad borular;
- ❖ Çuqun;
- ❖ Prokat istehsalı.

**Cədvəl 13: 2016-2020-cı illərdə Azərbaycanda əsas növ qara metallurgiya məhsullarının istehsalı dinamikası (min ton)**

| **Məhsul növləri** | **2016** | **2017** | **2018** | **2019** | **Bazis ilinə nisbətən artım tempi %-lə** |
|---|---|---|---|---|---|
| Çuqun tökmə | 2 533,4 | 321,3 | 12,7 | 702,0 | 27,7 |
| Əmtəəlik | 2500,7 | 314,9 | - | - | - |
| Polad tökmə | 345,3 | 387,3 | 381,6 | 325,9 | 94,4 |
| Əmtəəlik | 345,3 | 387,3 | 25,5 | - | - |
| Polad borular | 53,8 | 45,1 | 47,8 | 49,6 | 92,2 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/source/industry/)/ Azərbaycan sənayesi/ İqtisadi fəaliyyət növləri/ Metallurgiya sənayesi müəssisələrinin işinin əsas göstəriciləri

Cədvəli 13-ü təhlil etdiyimiz zaman 2018-ci illə müqayisədə 2019-cu ildə məhsulların istehsalında artım vardır. 2018-ci ildə çuqun tökmə istehsalı 12,7 min ton olmuşdursa, 2019-cu ildə 702,0 min ton olmuş və polad borularda 1,8 mln manat artım olmuşdur. Polad tökmə və 2019-cu ildə polad tökmə istehsalında 55,7 min ton azalma olmuşdur.

Metallurgiya sənayesinin ikinci qolu əlvan metallurgiyadır. Əlvan metallurgiyada istehsal olunan məhsullar aliminium, qızıl, gümüş, nadir metallar və s. aiddir. Aliminium əlvan metallurgiya sənayesinin ən geniş yayılmış məhsuludur. Ölkəmizdə 1954-cu il Daşkəsən filiz saflaşdırma müəssisəsinin yaradılması ilə aliminium istehsalına başlanılmışdır. Aliminium istehsalı sənayesinin inkişafına təsir edən fəaliyyətlərdən biridə 2012-ci il 21 yanvar tarixində "DET AL"MMC və "GAZ" fəaliyyət göstərməsi olmuşdur.

Aliminium istehsalının əsas xammalı olan alüminium oksidin istehsalı 2015-ci ildə dayandırılmışdır (Regionların sosial-iqtisadi inkişafı 2009-2013, Bakı 2014). Qara və əlvan metallurgiya sənayesinin inkişafı üçün, idxal-ixrac əməliyyatlarının həyata keçirilməsi üçün kifayət qədər ehtiyat imkanlarına sahibdir. Qara və əlvan metallurgiya sənayesində baş verən dəyişikliklər ixracın artmasına şərait yaratmışdır. Bundan əlavə dövlətin metallurgiya sənayesinin inkişafına göstərdiyi dəstək metallurgiya sənayesinin inkişafına şərait yaratmışdır. Sənaye sahəsi tikinti, nəqliyyat, gəmiqayırma və s. sahələrin inkişafınada təsir edir.

**Tikinti sənayesi**. Tikinti sənayesinin inkişaf etməsi ölkədə qeyri-neft sektorunun inkişafına, müdafiə qabiliyyətinin yüksəldilməsində mühüm rol oynayır. Hazırda ölkəmizdə iri tikinti sənayelərinin yaradılması KOS tikinti müəssisələrinin fəaliyyətinin zəifləməsinə gətirib çıxardır. Azərbaycanda fəaliyyət göstərən tikinti şirkətləri: "Akkord" STİK, "Gilan Holdinq", "Az-İnşaat" və s. qeyd etmək olar. Tikinti materialları təbii və suni materiallardan ibarət olur və ondan tikinti, təmir işlərində istifadə edilir. Tikinti məhsulları 2 yerə bölünür:

1. Təbii (daş,taxta,qum və s.);
2. Süni ( kimyəvi boyalar və s.).

Məlumdur ki, tikinti materialları əsasən tikinti və təmirlərdə istifadə olunur. Sənaye inqilabına (18 və 19-cu əsr) kimi ənənəvi tikinti materillarından istifadə edilirdi. 19-cu əsrin sonlarından isə artıq plasmas, polad, beton konstruksiyalardan istifadə edilməyə başladı. Tikinti materialları sənayesi aşağıdakı qruplara bölünür:

Mərmər və çınqıl hasilatı, qranit və üzlük materialların, sement, əhəng və gips, keramik və farfor, dam örtüyü üçün istifadə olunan yumşaq materialların və su

keçirməz və ekoloji cəhətdən sağlam materiallarının, polimer məmulatların, beton löhvələrin, asbest, tikinti üçün metal konstruksiyalarının istehsalı və taxta məmulatların emalı (https://penetron.az/tikinti-materiallarinin-istehsali-sah%C9%99si-haqqinda/, 2021).

Tikinti məhsullarına tələbatın yüksəlməsi bu sənaye sahəsinə investisiya cəlb ediciliyinidə yüksəldir. Qrafik 1-i təhlil etdiyimiz zaman 2016-ci illə müqayisədə 2019-cu ildə investisiya həcmi 72,8 mln manat artmışdır. 2018-ci il ilə müqayisədə 38 mln manat azalma olmuşdur.

2020-ci ilin statistik məlumatlarına əsasən tikinti sənayesində 254 müəssisə fəaliyyət göstərir. Bu müəssisələrdən 244-ü dövlət, 10-u qeyri-dövlət statuslu müəssisələrdir. 2020-ci ildə istehsal olunmuş tikinti sənayesi məhsullarının həcmi 746,3 mln manat olmuşdur ki, buda 2018-ci illə müqayisədə 14,8 mln manat, 2016-cı illə müqayisədə isə 274,4 çoxdur, ümumi sənaye məhsulunda isə 1,6 faiz paya sahibdir. Cədvəl 14-ü təhlil zamanı belə nəticəyə gəlinir ki, 2016-ci illə müqayisədə 2020-ci ildə sement istehsalı 1178 min ton, tikinti kərpici 228,7 min ton, asfalt istehsalı 413,5 min ton artmışdır. Betondan yığma tikinti konstruksiyaları 59,9 min ton, sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpicləri 45,7 min ton azalmışdır.

**Qrafik 1: Tikinti məhsullarının istehsalında əsas kapitala yönəldilmiş investisiyalar (mln manatla)**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/source/industry/)/ Azərbaycan sənayesi/ İqtisadi fəaliyyət növləri/ Tikinti materiallarının istehsalı ilə məşğul olan müəssisələrin işinin əsas göstəriciləri

**Cədvəl 14: Əsas növ tikinti materiallarının, məmulat və konstruksiyaların istehsalı**

| Məhsulun adı | Ölçü vahidi | 2016 | 2017 | 2018 | 2019 | Bazis ilinə nisbətən artım dinamikası |
|---|---|---|---|---|---|---|
| Sement | Min ton | 2310 | 2928,7 | 3444,8 | 3488,4 | 1178,0 |
| Hörmə üçün hazır beton qarışığı | Min ton | 405,9 | 797,5 | 1466,7 | 1960,7 | 1554,8 |
| Betondan yığma tikinti konstruksiyaları | min $m^3$ | 110,9 | 195,2 | 135,5 | 51,0 | -59,9 |
| Asfalt | Min ton | 698,6 | 554,5 | 650,6 | 1112,1 | 413,5 |
| Tikinti kərpici | Min $m^3$ | 234,1 | 303,1 | 388,7 | 462,8 | 228,7 |
| Möhkəmləndirilmiş qəlpələnməyən şüşə | min $m^2$ | 18,1 | 3,9 | 0,1 | - | - |
| Sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpicləri | Min ton | 128,8 | 130,7 | 74,1 | 83,1 | -45,7 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/source/industry/)/ Azərbaycan sənayesi/ İqtisadi fəaliyyət növləri/ Tikinti materiallarının istehsalı ilə məşğul olan müəssisələrin işinin əsas göstəriciləri

Ölkəmizdə qeyri-neft sənayesinin inkişaf etdirilməsi, sənaye sahələrinin şaxələndirilməsi, ixrac potensialının artırılması, lisenziyanın, sənədləşmənin, gömrük əməliyyatlarının sadələşdirilməsi investisiya axını ilə sıx bağlıdır. Ölkədə rəqabət qabiliyyətli sənaye sahələrinin yaradılmasıda xüsusi əhəmiyyət kəsb edir. Belə sahələrin yaradılması nəticəsində ixrac potensialının yüksəldilməsinə, idxalın

əvəzlənməsinə, ümumi olaraq həm daxili, həm də xarici tələbatı ödəməyə imkan verir.

# III FƏSIL. AZƏRBAYCANDA SƏNAYE MƏHSULLARININ İXRAC POTENSİALININ ARTIRILMASI PROBLEMLƏRİ

## 3.1. Sənaye məhsullarının ixrac potensialının artırılmasına dövlət dəstəyi

Müasir dövrdə ölkədəki suni qiymət artımı, çatışmamazlıqların aradan qaldırılması və s. problemlər üçün dövlətin müdaxiləsi rol oynayır. Dövlətin bu müdaxiləsi bazarda tənzimləyici rol oynayır. Resurs sahələrinin payının çox olması dövlətin müdaxiləsini dahada vacib amil etdi. Ölkəmizin neft-qaz resursları üzrə ixtisaslaşması, qeyri-neft sənayesinin inkişafını ləngitmişdir. Dövlətin iqtisadi, hüquqi, birbaşa metodlarla yanaşmasını əhatə etmişdir.

Dövlətin qeyri-neft sənayesinin inkişafı 4 istiqamətdə həyata keçirilir:

1. Tənzimləyici;
2. İstehsalçı;
3. İstehlakçı;
4. Stimullaşdırıcı.

Dövlət özbaşnalığın qarşısını almaq üçün tənzimləyici, iqtisadi aktivlikdə iştirak etdiyi üçün həm istehlakçı həm də istehsalçı, ixrac potensialının artırılması üçün stimullaşdırıcıdır (Abbasov İ., Əliyev T., 2007).

Hər bir ölkədə sənayenin inkişafında dövlət siyasəti qaçınılmazdır. İndiki dövrdə ölkəmizdə qeyri-neft sektorunun inkişafı üçün dövlətin həyata keçirdiyi siyasət aşağıdakılardır:

1. Həyata keçirilməli siyasət uzunmüddətli deyil, qisa və ya orta müddətli olmalıdır;
2. Sənaye sahələrində əsas sahə emal sənayesi olmalıdır;
3. Rəqabət qabiliyyəti yüksəldilməlidir;
4. İnvestisiya cəlb ediciliyinin stimullaşdırılması;
5. İqtisadiyyatı dünya iqtisadiyyatına inteqrasiya etməsinə şərait yaradılmalıdır.

Qeyri neft sektorunun inkişafında dövlətin digər rolu istehsalın səmərəliliyinin artırılması üçün sektor və institutların yaradılmasıdır. Mövzunun birinci hissəsində hər bir insitut və həmin insitutların irəli sürdüyü fikirlər göstərilmişdir. Milli iqtisadiyyatda rəqabət qabiliyyətliyi həmin məhsulların daxili rəqabət qabiliyyətliyindən asılıdır. Hazırda ölkəmizdəki qeyri-neft sənayesində istehsalın qeyri-səmərəli təşkili məhsulların rəqabət qabiliyyətini aşağı salır və xarici bazarda rəqabət potensialı zəifləyir. Hazırkı vəziyyətdə ölkəmizdə əsas məsələlərdən biri xarici bazarlarda rəqabət apara biləcək məhsulların istehsalını stimullaşdırmaq, istehsalı səmərəli təşkil etməkdən ibarətdir.

Bütün ölkələrin xarici iqtisadi siyasəti onun xarici iqtisadi fəaliyyətinə təsir edir. Bu əlaqə sənayenin inkişafınada təsir edir. Xarici əlaqələrin düzgün qurulması ixrac potensialının artırılmasına təsir edir. Xarici iqtisadi əlaqələrin qurulması, ixrac potensialının artırılması üçün həyata keçirilməli tədbirlər aşağıdakılardır:

1. Gömrük tariflərinin tənzimlənməsi;
2. İnhisarçılığın aradan qaldırılması;
3. İdxal-ixrac kvotalarının tətbiqi.

Milli iqtisadiyyatda hər hansı sahənin stimullaşdırılması həmin sahəyə dövlətin cəlb etdiyi kapitallardan və investisiyadan asılıdır. Çünki investisiya həmin sahənin inkişafına təkan verəcək vacib amillərdəndir. İnvestisiya cəlb edilməsi üçün aşağıdakı tədbirlər həyata keçirilir:

1. İnvestisiya yönlənidirilən sahələrdə xərclərə güzəşt tətbiq edilməsi. Bu xərclərə gömrük güzəştini misal göstərə bilərik;

2. Kompensasiya tədbirləri və ya sığorta. Fors major hallarda, yaranmış risklərdən qorunmaq üçün və ya cəlb edilmiş investisiyaların sığortalanması;

3. İnvestorlara güzəştlərin edilməsi və şəraitin yaradılması. Buna misal olaraq Asanpay ödəniş sistemini göstərə bilərik ki, leqal qaydada ödəniş üçün şərait yaradılmışdır;

4. Xüsusi zonaların yaradılması. Misal olaraq aqroparkların, sənaye məhəllələrinin yaradılması sənaye inkişafında rol oynayır.

Dövlətin həyata keçirdiyi stimullaşdırıcı tədbirlərdən biridə 2016-ci ildən tətbiq edilən investisiya təşviqi sənədidir. Belə ki, bu sənədi alan investorlar 7 il müddətində əmlak və torpaq vergisindən 100 %, mənfəət vergisindən isə 50%, idxal edilmiş texnika ve texnoloji yeniliklərə görə isə 7 il müddətində ədv-dən azaddır.

2016 ci il 1 iyun tarixindən qüvvəyə minmiş lisenziya haqqında qanuna əsasən lisenziyaların verilməsinin sadələşdirilməsi və təkmilləşdirilikdən sonra:

1. Lisenziya tələb edən sahələrin azaldılması;

2. Lisenziya verilmə, xitam verilmə prosedurlarının Asan xidmət tərəfindən həyata keçirilməsi;

3. Müddətsiz lisenziya (sahibkarlıq fəaliyyətində);

4. Lisenziya verilmə vaxtının qısaldılması (15 gündən 10 günə endirilmişdir) (İnvestisiya təşviqi sənədi, 2016).

Ölkəmizdə qeyri-neft sektorunun inkişafına vergi güzəştləri, gömrük güzəştlərindən başqa aşağıdakı stimullaşdırıcı tədbirlərdə həyata keçirilir:

1. Sahibkarlığa dövlət güzəştləri;
2. Sahibkarların bilik və bacarıqlarının artırılması, heyətin inkişaf etdirilməsi;
3. Biznesin təkmilləşdirilməsi;
4. İqtisadi zonalarda fəaliyyət göstərən subyektə güzəştlərin edilməsi;
5. Texnoloji yeniliklərə təşviq etmə.

Bu güzəşt və tədbirlər nəticəsində dövlət bir çox hədəflərə nail olmuşdur:

1. İxrac potensialının artırılmasına təşviq nəticəsində məhsul istehsal çeşidini artırmaq;
2. İnhisarçılığın qarşısının alınması;
3. Məhsul çeşidin artırılması nəticəsində rəqabət qabiliyyətinin artması;
4. Gömrük güzəştləri nəticəsində ixracın artması.

Dövlətin bu tədbirlərdən başqa xüsusi zonalarıda vardır. Texnologiya parkları, sənaye məhəllələri xüsusi əhəmiyyətə sahib oldu. Bu xüsusi zonalar biznesin inkişafına, işçi heyətinin inkişafına, yeni iqtisadi mexanizimlərin yaxşılaşdırılma - sına xidmət edir. ABŞ, Yaponiya, Turkiyədə sənaye texnoloji parkı universitetlərlə əlaqəsi kadr heyətinin inkişafına təsir edir. Dünyada yaradılmış sənaye məhəllələrində güzəştlərdə edilir. Bu güzəştlər həmin ölkədəki sahibkarlıq üçün stimullaşdırıcı rol oynayır. Edilən stimullaşdırıcı tədbirlər hər ölkədə fərqli olur. Bu tədbirlər həmin ölkədəki siyasətdən asılıdır. Edilən stimullaşdırıcı tədbirlərə aşağıdakıları misal göstərə bilərik:

1. Kredit faizlərinin aşağı salınması (sahibkarlara verilən kreditlər);
2. Komunal istifadəsində güzəştli tariflər tətbiq edilməsi;
3. Subsidiya və investisiya cəlb edilməsi;
4. Vergi güzəştləri;
5. İşçilər üçün şərait yaradılması (yaşayış binası,ərzaq təminatı və s.);
6. İstehsal sahələrində avadanlıqlardan, xidmətlərdən istifadə azadlığı;
7. Ölkəmizin istifadə etdiyi bir pəncərə sistemi yaradılması.

Bütün qeyd etdiyimiz güzəştlərin tətbiq edilmə siyasəti, həmin ölkədə qəbul edilmiş qərar, layihə və siyasətdən bir başa asılıdır.

Respublikamızda qeyri-neft sənayesinin inkişafına uyğun olaraq sənaye məhəllələri, texnologiya parkları yaradılmışdır:

**Sənaye texnologiya parkları:**

Sumqayıt sənaye parkı İlham Əliyevin 21 dekabr 2011-ci il tarixli 548 saylı Fərmanı ilə yaradılıb və 11 may 2012-ci il tarixində qeydiyyata alınıb. Sənaye parkı kimya sənayesi fəaliyyəti göstərir. İstehsal saəhələri: Tibb kimyası, inşaat kimyası,

elektronika və avtomobil kimya sənayesi və s. Sənaye parkının yaradılmasında məqsəd:

1. Qeyri-neft sektorunun inkişafına dəstək;
2. Sənaye istehsalının artırılması;
3. Əmək ehtiyatlarından düzgün istifadə edərək məşğulluğun artırılması.

Bu sənaye parkı neft-kimya və digər sənaye sahələri üzrə rəqabət qabiliyyətli məhsul istehsalı, emalı üçün nəzərdə tutulmuşdur. Dövlətin verdiyi dəstəyə əsasən Sumqayıt kimya sənaye parkı aşağıdakılardan 10 il müddətinə aşaöıdakı vergi və rüsumlardan azad edilmişdir:

1. Əmlak, torpaq və gəlir vergisi;
2. İdxal edilən avadanlıqlara təyin edilmiş əlavə dəyər vergisi və gömrük rüsumlarından.

Sumqayıt kimya sənayesi parkında fəaliyyət göstərən rezidentlər: ”Socar Polymer” MMC, “Azertexnolayn” QSC və başqalarını qeyd edə bilərik (https://scip.az/az/page/senaye-parklari/sumqayit, 2021).

Balaxanı sənaye parkı İlham Əliyevin 28 dekabr 2011-ci il sərancamı imzalanmış və 19 dekabr 2012-ci ildə yaradılmağa başlanılmışdır. Sənaye parkı təkrar istehsal üzrə fəaliyyət göstərir. Başlıca məqsəd  təkrar istehsal sahəsində maraqlı olan potensial sahibkarlar və investorlar üçün əlverişli şərait yaratmaq olacaq. İstehsal sahələri: Təkrar emal və təkrar istehsaldır. Sənaye parkının yaradılmasında məqsəd:

1. Vergi güzəştlərinin tətbiq edilməsi;
2. Ətraf mühitin qorunması və təsiri azaltmaq;
3. Qeydiyyatın “vahid pəncərə” sistemi ilə asanlaşması.

Bura aid olan rezidentlərə misal olaraq “AzEkol”MMC, “MET-AK”MMC və s. qeyd edə bilərik (https://tamizshahar.az/balaxani-s%C9%99naye-parki/, 2021).

Mingəçevir sənaye parkı - İlham Əliyevin 26 fevral 2015-ci ildə 1077 nömrəli sərəncamı ilə yaradılmışdır. İki müəssisə fəaliyyət göstərir:  “Yüksək Texnologiyalar Parkı”, “Mingəçevir Yüksək Texnologiyalar Parkı”. Sənaye parkının yaradılmasında məqsəd:

1. Məşğulluğun artırılması;
2. Sahibkarlığın dəstəklənməsi;
3. Yüksək rəqabət qabiliyyətli sənaye müəssisələrinin yaradılması.

Burada əsas məqsəd yüngül sənayenin inkişafı ilə bağlıdır və pambıq istehsalı, dəri məmulatı istehsalı,tekstil istehsalı üzrə ixtisaslaşmışdır. Xüsusilə qeyd etmək lazımdır ki, Mingəçevir sənaye parkında istehsal edilən pambıq ipliyi “Made in Azerbaijan”adı altında dünya bazarında satışa çıxarılır (https://scip.az/az/page/mingecevir, 2021).

Qaradağ sənaye parkı - 3 iyun 2015- ci il İlham Əliyevin imzaladığı 1255 nömrəli sərəncam ilə yaradılmışdır. Müasir texnologiyaların tətbiqi ilə rəqabət qabiliyyətli gəmiqayırma və avadanlıqların istehsalı üçün yaradılmışdır. Yaradılmasında məqsəd:

1. Qeyri-neft sektorunun davamlı inkişafı;
2. Sahibkarlığa dəstək;
3. Məşğulluğun artırılması;
4. Rəqabət qabiliyyətli məhsul istehsalı.

Parkda 1 rezident fəaliyyət göstərir. “Bakı Gəmiqayırma Zavodu” MMC-dir (https://scip.az/az/page/senaye-parklari/qaradag, 2021).

Pirallahı sənaye parkı 14 sentyabr 2016-ci il 2336 tarixli sərəncam ilə yaradılmışdır. Əsasən əczaçılıq üzrə ixtisaslaşmışdır. Yaradılmasında məqsəd:

1. Əcazçılıq məhsulları üzrə idxalın azaldılması;
2. Tələbatı yerli istehsal sahəsində təmin edilməsi;
3. Yüksək texnologiyalardan istifadə edərək rəqabət qabiliyyətli məhsul istehsalı.

Parkda 1 rezident fəaliyyət göstərir. “Hayat Farm” MMC-dir. Burada yeni texnologiyalar ilə təmin edilmiş və 22,5 mln qutu və 500 mln kapsul istehsalı gücünə malik olan zavod inşa ediləcək (https://scip.az/az/page/pirallahi, 2021).

Neftçala və Masallı sənaye məhəlləsi 2015 və 2016-ci ildə yaradılmışdır. Bu sənaye məhəllələrinin yaradılmasında əsas məqsəd kiçik və orta sahibkarlara dəstək olaraq rəqabət qabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi üçün nəzərdə

tutulmuşdur. Bütün bunlardan başqa Azərbaycan Respublikasi İqtisadiyyat Nazirliyindəki məlumata əsasən sənaye parklarının tikintisi zamanı güzəşt sənədi olan rezidentlər idxal rüsumundan azad edilir . Rezident sənədini əldə etmək üçün online sayt istifadə edilir (http://www.azpromo.az/investments/industrial-parks, 2021).

Sənaye və texnologiya parkları məhsul istehsalından investisiyalar əsas rol oynayır. Dövlətin stimullaşdırıcı tədbirlərindən biridə 01.01.2013-cu ildə qəbul etdiyi qərardır. Qeydiyyata alınmış rezidentlər fəaliyyətə başladığı dövrdən 7 il ərzində əmlak, torpaq, mənfəət vergisindən azaddır.

Dünya ölkələrini təhlil edərkən görə bilərik ki,sənaye siyasəti 3 istiqamətdə həyata keçirilibdir:

1. İdxalı daxili istehsal, resurs və xammal ilə əvəzləmə metodu;
2. Texnoloji yeniliklərin cəlb edilməsi metodu;
3. İxrac yönlü sənaye metodu.

Qeyd edilən hər bir sənaye metodunun üstün tərəfləri və çatışmazlıqları mövcuddur.

1. İdxalı daxili istehsal, resurs və xammal ilə əvəzləmə metodunu tətbiq edən ölkələrdə istehsalın inkişaf etdirilməsi və daxili bazarı təmin etməsi nəzərdə tutulmuşdur. Bu siyasəti həyata keçirən ölkələrdə tədiyyə balansının yaxşılaşdırılması, işsizlik səviyyəsinin azaldılması, valyuta kursunun sabitliyinin qorunması, daxili tələbatı ödəməyi təmin etmişdir. Bu siyasəti XX əsrin 80-ci illərində Çin, Koreya kimi ölkələr həyata keçirtmişdir;
2. Texnoloji yeniliklərin cəlb edilməsi metodunun tətbiq edilməsində əsas hədəf kimi istehsalın yüksək texniki və texnoloji yeniliklərlə təmin etmək, daxili tələbin təmin edilməsi, rəqabət qabiliyyətli və yüksək gəlirli məhsul istehsal edərək, ölkənin dünya iqtisadiyyatında rəqabət qabiliyyətinin artırılmasına şərait yaradır;
3. İxrac yönlü sənaye metodu - bu metodu tətbiq edən ölkələrdə əsasən ixrac qabiliyyətli məhsul istehsalını artırmaq, ixrac üçün nəzərdə tutulan məhsul istehsalının stimullaşdırılması, rəqabət qabiliyyətli sahələrin inkişafına dəstəyi həyata keçirirlər. Bu modelin tətbiq edilməsinin üstün tərəfi kimi dünya

iqtisadiyyatına inteqrasiya olunmasını qeyd edə bilərik. Azərbaycanda bu model istifadə edilir (Azərbaycanın İqtisadi və Sosial Araşdırmalar Jurnalı, Xəlilov H., 2017).

AZPROMO (Azərbaycanda ixracın və investisiyaların təşviqi fondu)- 2003-cü ildən fəaliyyətə başlamışdır. Burda əsas meyar qeyri-neft sektoruna investisiya cəlb edilməsi, ixracın stimullaşdırılması kimi fəaliyyət göstərir. Made in Azerbaijan brendin altında rəqabət qabiliyyətli məhsul istehsal etmək, ixrac potensialınnın yaxşılaşdırılması və dünyada bu brendin tanıdılaraq ixracın stimullaşdırılması kimi tədbirlərdə həyata keçirir. Xüsusi ilə də xarici ölkələrdə təşkil edilən tədbirlər, konfraslar hesabına xarici investorları ölkəyə gətirərək müsbət nəticələr əldə edilir. Bunda başqa Prezidentin ixraca dəstək məqsədi ilə yerli istehsal olan məhsulların xarici bazarlarda Made in Azerbaijan adı altında geniş miqyaslı tanıdılması üçün xərclərin müəyyən hissəsi dövlət tərəfindən ödənilir. AZPROMO-nun Made in Azerbaijan brendini tanıtmaqdan əlavədə tədbirlər həyata keçirir. Bunlar:

1. İnvestisiya imicinin yaradılması;
2. Yerli və xarici investorları cəlb etmək;
3. Məlumat bazasının təşkil edilməsi (ixrac və investisiya) ;
4. Xarici ticarət üçün araşdırılma edilməsi;
5. İxrac fəaliyyəti ilə məşğul olan sahibkarlara məsləhət və bazar xidmətləri.

(http://www.azpromo.az/made-in-azerbaijan/made-in-azerbaijan/trade-missions, 2021).

Dövlətin həyata keçirdiyi stimullaşdırıcı tədbirlərdən biridə 2007-ci il 25 oktyabr tarixində olmuşdur. Bu tədbirin əsas məqsədi kiçik və orta sahibkarların (KOS) qeydiyyata alınmasını Dövlət Vergi Xidməti icra edəcəkdir. Sahibkarlığa başlamanın "bir pəncərə sistemi" ilə həyata keçirilməsi nəticəsində isə vergi xidmətində qeydiyyata alınan şəxslərin sayı artmışdır. Çünki əvvəlki dövr ilə müqayisədə qeydiyyata alınma üçün sərf edilən vaxt otuz gündən iki günə və prosedurlar isə on beşdən iki-yə salınmışdır (http://www.cesd.az/wp/economic-8.htm, 2021).

Dövlətin həyata keçirdiyi tədbirlərdən biridə İlham Əliyevin 2016-cı il 16 mart ayında "milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin

başlıca istiqamətləri” haqqında imzaladığı sərəncam olmuşdur. Bu sərəncam aşağıdakı məqsədlərdən ibarət idi:

1. Məşğulluğun yüksəldilməsi və gəlir səviyyəsinin artırılması;
2. Qeyri-neft sahəsinin inkişafının təmin edilməsi;
3. İqtisadiyyatın bütün sahələrinin səmərəli təşkili və rəqabət qabiliyyətinin yüksəldilməsi;
4. Balansın müsbət inkişafını təmin etmək.

Strateji yol xəritəsində iki missiya aşağıdakılarıdır:

1. İxrac sektorlarında rəqabət qabiliyyətinin yüksəldilməsi və xarici investisiya cəlb ediciliyi;
2. İdxalın əvəzlənməsi modeli və səmərəliliyin yüksəldilməsi.

“Strateji Yol xəritəsi” ndə 8 sektora xüsusi diqqət yetiriləcəkdir:

- ❖ “4 istehsal sektoru: neft qaz, kənd təsərrüfatı, istehlak malları istehsalı, ağır sənaye və maşınqayırma sənayesi;
- ❖ 2 xidmət sektoru: ixtisaslaşmış turizm, logistika və ticarət;
- ❖ 2 sosial sektor: uyğun qiymətə mənzillər və kompleks məsələ kimi peşə təlimləri”(http://rublika.az/musahibe/19473-azerbaycana-shok-terapiyasi-yox-shoksuz-terapiya-lazimdir.html, 2021).

Ümumi qeyd edə bilərik ki, sənaye müəssisələrinin müasir texniki və texnoloji yeniliklərlə təmin edilməsi, rəqabət qabiliyyətli məhsul istehsalının artırılması, qeyri-neft sənayesinin inkişafı dövlətin əsas prioritet istiqamətlərindəndir ki,sənədlərdə və həyata keçirilən siyasətdə öz əksini tapmışdır (Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” 6 dekabr 2016).

### 3.2. Azərbaycanda sənaye məhsullarının ixracat prioritetləri

Azərbaycanda qeyri-neft sənayesinin inkişafına xüsusi diqqət edilsədə dünyada yayılan pandemiya dövrü ilə əlaqədər zəifləmə baş vermişdir. Belə ki ölkədə əsas gəlir olan neftin qiymətinin enməsi bu dövrdəki zərərlərdən oldu. Bu zərər ölkəmizdə qeyri-neft sektorunun inkişafını ləngidən və iqtisadiyyatın zəifləməsində önəmli faktor oldu. Devalivasiya isə valyutanın USD qarşısında dəyərinin azalması

qeyri-neft sahələrinə yatırılan investisiyanı artırsada, əhalinin rifah səviyyəsinin enməsinə, iş yerlərinin azalması, məhsulların yüksək qiymət ilə idxalına və beləliklə qiymət artımı kimi mənfi təsirlər etdi. Devalivasiya əsasən idxaldan asılı olan sahələrə daha çox təsir etdi (yeyinti sənayesi, tikinti sənayesi).

Ölkədə qeyri-neft sektorunda bir çox problemlər öz aktuallığını qoruyur:

- ❖ Dövlətimizdə uzun müddət əsas aparıcı qüvvə neft-qaz sahəsinin olması;
- ❖ Məhsul istehsalı zaman yüksək material və eneji tutumlu olması;
- ❖ Qeyri-neft sektorunun inkişafına dəstək olacaq ixtisaslı kadrların, mütəxəssislərin hazırlanmasının aşağı səviyyəsi.

Ölkədə qeyri-neft sektorunun inkişafı üçün problemlər aradan qaldırılmalı, inkişaf etdirici tədbirlərin icrasını sürətləndirmək lazımdır.

Ölkəmizdə qeyri-neft sənayesinin zəif və güclü tərəfləri mövcuddur. Dissertasiyanın bu hissəsində qeyri-neft sənayesində zəif tərəflər, güclü tərəflər, ixrac haqqında araşdırmalar ediləcək. Həmçinin kimya sənayesi, maşınqayırma sənayesi, metallurgiya sənayesi və digər sənayelərin inkişaf etdirilməsi üçün həyata keçirilməli olan tədbirlərdə araşdırılmışdır.

**Cədvəl 15: Azərbaycanda qeyri-neft sənayesində ixracın:**

| **Güclü tərəfləri:** | **Zəif tərəfləri:** |
|---|---|
| İxtisaslı kadr mövcudluğu | İxtisaslı kadrın düzgün yerləşdirilməməsi |
| Coğrafi mövqenin əlverişliliyi | İxracın strategiyasının düzgün qurulmaması |
| Texnoloji yenilik | Texnologiya istehsalı olmaması |
| Resurs mövcudluğu | İnflyasiya və devalivasiya |

**Mənbə:** Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası "İqtisadiyyat" alınan məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir

Ölkəmizdə qeyri-neft sənayesində ixracın güclü tərəfləri:

1. İxtisaslı kadrlar: Sənaye sektorunda ən önəmli meyarlardan biri işçi qüvvəsindən düzgün istifadədədir. Təhsil səviyyəsinin yüksəldilməsi ilə savadlı kadrlar və düzgün istehsal mümkündür;

2. Coğrafi mövqeyin əlverişliliyi: Ölkəmizin mövqeyinin beynəlxalq əhəmiyyətli ticarət yolunda yerləşir;

3. Texnoloji yenilik: Düzgün texnoloji yeniliklərdən istifadə edərək rəqabət qabiliyyətli məhsul istehsalı, ixracı artırır;

4. Resurs mövcudluğu: Neft və qaz ölkəsi olan ölkəmizdə istehsal zamanı enerjinin ucuz olması nəticəsində, məhsulun maya dəyəri aşağı olacaqdır, buda rəqib məhsullara nisbətən aşağı qiymət tarifinə icazə verəcəkdir.

Ölkəmizdə qeyri-neft sənayesinin güclü tərəfləri olduğu kimi zəif tərəfləridə mövcuddur. Bunlar:

1. İxtisaslı kadrın düzgün yerləşdirilməməsi: Ölkəmizdə düzgün yönləndirməmə nəticəsində kadr azlığı yaranır və bunun nəticəsi olaraqda istehsal səviyyəsi aşağı enərək ixraca mənfi təsir edir;

2. İxracın strategiyasının düzgün qurulmaması: Bəzi şirkətlər arasında ixrac sahəsində toqquşmalar yaranır və buda ixracın həyata keçirilməsində pproblemlər yaradır;

3. Texnologiya istehsalı olmaması: İstehsal zamanı səxsi texnologiyanın istehsal edilməməsi, öz sektorunda şəxsi istifadə üçün texnologiya istehsal edən müəssisələrdən geri qalmağa və ixracın, rəqabətin zəifləməsinə səbəb olur;

4. İnflyasiya və ya devalivasiya: Manatın dəyərinin azalması (devalivasiya) idxal zamanı alınan malların baha başa gəlməsinə və istehsal edilən məhsulun maya dəyərinin artmasına gətirib çıxarır ki, buda ixrac ediləcək məhsulun rəqib məhsullarla müqayisədə baha olmasına və ixracın zəifləməsinə gətirib çıxardır.

**Cədvəl 16: Azərbaycanda qeyri-neft sənayesində ixracın artırılması üçün:**

| İmkanlar | Təhlükələr |
|---|---|
| Turist axını | Qloballaşma zamanı səhv siyasət |
| Qloballaşma | Rəqabət qabiliyyətliyin aşağı düşməsi |
| Azad iqtisadi zona və azad ticarət müqaviləsi | Dünya bazarında böhran |
| Coğrafi mövqe | Siyasi böhran |

**Mənbə:** Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası "İqtisadiyyat" alınan məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir

Biz ixrac zamanı yaranan problem və güclü tərəfləri yuxarıda qeyd etdik. Bundan əlavə olaraq indi ixracın artırılması üçün imkanlar və təhlükələrdə mövcuddur.

Azərbaycanda qeyri-neft sənayesində ixracın artırılması üçün imkanlar:

1. Turist axını: Xarici ölkələrdən gələn tursitlər ölkəmizdə istehsal olunan məhsulları alır və buda istehsalın yüksəlməsinə səbəb olur. Lakin son illərdə mövcud vəziyyət ilə əlaqədar olaraq turist axını zəifləmişdir;

2. Qloballaşma: Düzgün iqtisadi siyasət nəticəsində ixracda əhəmiyyətli artım mümkün olacaqdır. Ən önəmli imkanlardan biri isə ölkəyə kapital və texnologiya gətirilməsini təmin edir;

3. Azad iqtisadi zona və azad ticarət müqaviləsi: Bu imkan xarici ticarətin artırılmasına müsbət təsir edəcək;

4. Coğrafi mövqe: Ölkəmizin Türk dövlətlərinə yaxın yerləşməsi və Avrasiya enerji dəhlizinin ölkəmizdən keçməsi strateji fayda təmin edir.

Azərbaycanda qeyri-neft sənayesində ixracın artırılması üçün təhlükələr:

1. Qloballaşma zamanı səhv siyasət: Ölkədə iqtisadiyyatda qeyri-sabitlik ölkəyə xarici kapital axının gəlməsinə təhlükə yaradır;

2. Rəqabət qabiliyyətliyin aşağı düşməsi: Artan rəqabət şəraitində rəqabətə davamlılığı artırmaq üçün daha keyfiyyətli məhsul istehsal edilməlidir. Lakin texnologiyanın ölkəmizdə istehsal edilməməsi, yüksək texnoloji yeniliklərdən istifadə edən ölkələrə nisbətən rəqabət aparmağı çətinləşdirir;

3. Dünya bazarında böhran: Pandemiya dövri ilə əlaqədar olaraq yaranan böhran Azərbaycan iqtisadiyyatınada təsir edir;

4. Siyasi böhran: 1988-ci ildən başlayan və 2020-ci il noyabrın 9-da bağlanmış müqaviləyə qədər davam edən müharibə Azərbaycanda ixraca mənfi təsir göstərən təhlükələrdəndir.

Ölkəmizdə qeyri-neft sənayesindəki vəziyyəti təhlil etdiyimiz zaman görürük ki, bu sektorun inkişafı üçün potensial yüksəkdir lakin bu potensialdan düzgün istifadə edilmir. Buda öz növbəsində problemlər yaradır ve sektorun inkişafını ləngidir və ixraca mənfi təsir edir. Qeyri-neft sənayesinin inkişafının artırılması üçün bu problemlər həlli yolunu tapmalıdır. Problemlərə aşağıdakılar göstərə bilərik:

1. Xammal ixracının bazarda hazır məhsullara nisbətən üstünlük təşkil etməsi;
2. İxraca hazır məhsulların bazarda rəqabət qabiliyyətinin aşağı olması;

3. İxtisaslı kadrlardan düzgün istifadə edilməməsi və ixrac potensiallı sahələrdə kifayət qədər ixtisaslı kadr olmaması;

4. İxrac zamanı gömrük problemləri;

5. Texnoloji yeniliklərdən rəqiblərə nisbətən geriliyi;

6. Qeyri-neft sənayesinin əsas rəqabət qabiliyyətli məhsul istehsalına meyilli olmaması.

Yuxarıda qeyd etdiyimiz problemlərin həlli yolları mümkündür. Bu həlləri bir mərhələlərlə etmək mümkündür.

**1-ci mərhələ - Resurslardan düzgün istifadə edilmə**

Ölkəmizdə olan resurslardan effektiv və düzgün istifadə edərək istehsala yönləndirilməlidir. Keyfiyyətli məhsul istehsalını artıraraq ixraca yönləndirməli və potensialı artırmalıyıq.

**2-ci mərhələ - Hazır məhsul ixracı**

Ölkəmizdə inkişafda olan qeyri-neft sənayelərinə diqqət artırılmalı, yarım fabrikat və xammal istehsalını son məhsul istehsalı ilə əvəzləyib ixrac potensialını artırmalıyıq.

**3-cü mərhələ - Texnologiya istehsalı**

Yüksək texniki və texnoloji yeniliklərdən istifadə edilərək istehsal artırılmalıdır. Həmçinin dövlət yerli istehsal olan texnologiyaları dünya bazarına tanıtmaq üçün büdcədən vəsait ayırmalıdır.

Sahibkarlığın inkişafında dövlətin qarşısında duran əsas məsələlərdən biridə KOS inkişaf etməsidir. Çünki kiçik və orta sahibkarlığın inkişafı ixrac potensialının artmasına təsir edəcək. Sənayenin inkişafı üçün daxili və xarici investisiyalar artırılmalıdır. Bunun üçün aşağıdakı problemlər nəzərə alınmalıdır.

1. Əlverişli biznes mühiti: Xarici və daxili investisiya cəlb edilməsi üçün uyğun biznes investiya mühiti yaradılmalıdır;

2. İnestisiya mühitinin yaxşılaşdırılması;

3. İnvestisiya meylləri nəzərə alınmalı və ona uyğun imkanlar, tendensiyalar yaradılmalıdır;

4. İnvestisiyaların sığortalanması.

Kimya sənayesi iqtisadiyyatın ən qədim qeyri-neft sənaye sahələrindəndir. Bu sənaye sahəsinin inkişafı üçün ölkəmiz bütün perspektivlərə malikdir. Kimya sənayesinin inkişaf etdirilməsi üçün əsas olaraq müəssisələr modern texnika və texnologiya ilə təmin edilməli, rəqabət üstünlüyü əldə edəcək məhsul istehsalı artırılmalı, istehsal olunan məhsul növü genişləndirilməlidir. Bu sahədə məhsulun son optimal istehsalına qədər dərinləşməsinə diqqət edilməlidir.

Maşınqayırma sənayesi iqtisadiyyatın ən aparıcı sahələrindəndir. Bu sənaye sahəsinin inkişafına müəssisələrin müasir texnologiya ilə təmin etmə, sertifikatlaşdırma, ekoloji standartların tətbiqi və elmi-texniki potensialdan düzgün istifadə ilə nail olmaq mümkündür.

Metallurgiya sənayesi iqtisadiyyatımızda perspektivli sahələrdəndir. Metallurgiya sənayesinin inkişafında müəssisələrdə müasir istehsal komplekslərinin yaradılması, son məhsul istehsalının inkişaf etdirilməsi, yeni resurs mənbələrinin müəyyən edilməsi, ixrac edilə bilən rəqabət qabiliyyətli məhsul istehsalının stimullaşdırılması bu sahənin inkişafını təmin edən tədbirlərdəndir.

Qeyri-neft sənayesində inkişafı zəif olan sahələrdən biri yüngül sənayedir. Bu sənaye sahəsinin inkişafı iqtisadiyata müsbət təsir edəcəkdir (işsizlik səviyyəsinin azalması). Yüngül sənayenin inkişafı üçün kifayət qədər xammal mövcuddur. Bu sahənin inkişafı üçün keyfiyyətli istehlak mallarının istehsalının stimullaşdırılması, xalça istehsalının genişləndirilməsi, investisiya cəlb edilmə, müasir texnologiya ilə müəssisələrin təmin edilməsi sürətli inkişafa səbəb olacaqdır.

Yeyinti sənayesi ölkə iqtisadiyyatında olduqca əhəmiyyətlidir. Əhalinin ərzaq təminatı və ərzaq təhlükəsizliyi üçün yeyinti sənayesin rolu danılmazdır. Bu səbəbdən dövlət bu sahənin inkişafı üçün bir çox tədbirlər həyata keçirmişdir. Bunlara sahibkara vergi güzəştləri, subsidiyalar, güzəştli kreditlərin verilməsi, aqrolizinq və aqroservis xidmət şərtlərinin sadələşdirilməsini qeyd edə bilərik. Çünki KOS yeni texnika və texnologiyanın istehsala cəlb edilməsində maliyyə çətinlikləri yaşayır və buda sənayenin inkişafına təsir edir. Dövlət isə bu cür halların yaşanmaması üçün dövlət dəstəyi verərək istehsalı stimullaşdırmağa çalışır.

Turizm sənayesi iqtisadiyyatda ən gəlirli sahələrdəndir. Turizm sənnayesinin inkişaf etdirilməsi üçün beynəlxalq əməkdaşlıqların genişləndirilməsi, rəbabət qabiliyyətli turizm sektorunun təmin edilməsi, investisiya cəlb ediciliyinin yüksəldilməsi, turizimin müxtəlif növlərinin inkişfının təmin edilməsi, ölkəmizin layiqincə təbliği nəticəsində nail olmaq mümkündür.

